**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

Magistr hazırlığı üçün "Türk ədəbiyyatı tarixi", "Türk ədəbiyyatı nəzəriyyəsi", "Türk ədəbiyyatşünaslığının tarixi və metodologiyası", "Türk ədəbiyyatşünaslığının müasir problemləri", "Mənbəşünaslıq", "Mətnşünaslıq", "Xüsusi kurs" fənlərinin

***PROQRAMLARI***

**HSM – 020003 "TÜRK ƏDƏBİYYATI" İXTİSASI ÜZRƏ**

---

---

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***ПРОГРАММЫ***

По подготовке магистров по дисциплинам: «История турецкой литературы», «Теория турецкой литературы», «История и методология турецкого литературоведения», «Современные проблемы турецкого литературоведения», «Источниковедение», «Текстология», «Спецкурс».

**СПЕЦИАЛЬНОСТЬ:**
**HSM – 020003 «ТУРЕЦКАЯ ЛИТЕРАТУРА»**

**BAKI – 2007**

*Tərtib edən:*

**Əsgər Rəsulov**
*filologiya elmləri doktoru,*
*BDU-nun professoru*

*Elmi redaktor:*

**Rüfət Rüstəmov**
*filologiya elmləri doktoru,*
*professor*

*Rəyçilər:*

**Aydın Abıyev,**
*filologiya elmləri doktoru,*
*professor*

**Şükufə Qədimova**
*filologiya elmləri namizədi*

# İZAHAT VƏRƏQİ

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi Türk filologiyası şöbəsinin magistraturasında təhsil alan tələbələr üçün türk ədəbiyyatı kursuna aşağıdakı müstəqil fənlər daxildir:

Türk ədəbiyyatı tarixi – 176 saat;

Türk ədəbiyyatı nəzəriyyəsi – 32 saat;

Türk ədəbiyyatşünaslığının tarixi və metodologiyası – 32 saat;

Türk ədəbiyyatşünaslığının müasir problemləri – 32 saat;

Mənbəşünaslıq – 32 saat;

Mətnşünaslıq – 32 saat;

Xüsusi kurs – 32 saat.

Bütün fənlər üzrə hazırlanmış və burada toplu şəkildə təqdim olunan proqramlar bir-biri ilə qarşılıqlı əlaqədə olub, magistr tələbələrin türk ədəbiyyatını kompleks şəkildə öyrənmələrini təmin etmək üçün nəzərdə tutulmuşdur.

Xüsusi kurs kimi “Türk sənədli-bədii nəsri” mövzusu seçilmişdir. Bu seçim onunla əlaqədardır ki, sənədli-bədii nəsr Türkiyə ədəbiyyatı tarixində və müasir ədəbi prosesdə qabaqcıl mövqe tutur və sənədli-bədii janrlar türk nəsrinin bütün inkişaf mərhələlərində yeni həyati materialın, fakt və hadisələrin dərk edilməsi, bunların ətrafında fəal ictimai rəy yaradılması, xalqın maarifləndirilməsi işində ədəbiyyatın ən çevik və təsirli janrları olmuşdur. Digər tərəfdən, bədii-publisistik janrların tədqiqi türk nəsrinin inkişaf qanunauyğunluqlarının öyrənilməsinə, ədəbi prosesin dinamikasını, bu və ya digər inkişaf mərhələsində ədəbiyyatın ideya-estetik prinsiplərinin təkamülünü müəyyənləşdirməyə, bütövlükdə türk ədəbiyyatının tematikasının və bədii imkanlarının köklərini, onları zənginləşdirən başlıca ədəbi-ictimai amilləri ortaya çıxarmağa kömək edir.

Hər fənn üzrə proqrama onun məqsəd və vəzifələrini açıqlayan kiçik izahat, əsas məzmun, mövzu planı, elmi ədəbiyyat və dərsliklər siyahısı daxildir.

Proqramlardan digər ali məktəblərin müvafiq fakültələrində də istifadə oluna bilər.

# TÜRK ƏDƏBİYYATI TARİXİ

Magistratura üçün türk ədəbiyyatı tarixi kursunun poqramı bakalavr pilləsi üzrə aparılan eyni adlı kursun proqramının davamı kimi tərtib olunmuşdur. Təkrarlardan qaçmaq məqsədilə bakalavr pilləsində keçilən mövzular haqqında ya ümumi məlumat verilmiş, ya da bu mövzular dərinləşdirilmiş və genişləndirilmiş şəkildə təqdim edilmişdir. Əvvəlki proqramda türk ədəbiyyatı tarixinin əksini tapmayan nəzəri-estetik məsələləri və öyrənilməyən müəlliflərinin həyat və yaradıcılığı daha ətraflı şəkildə işıqlandırılmışdır.

Proqramın həcmi 176 saatdır, o cümlədən 120 saat mühazirə və 56 saat seminar məşğələləri üçün nəzərdə tutulmuşdur.

1.Türk ədəbiyyatının tarixi-xronoloji inkişaf mərhələləri.

2.İslamaqədərki türk ədəbiyyatı və epos mədəniyyəti.

3.Qədim və Erkən Orta əsrlər türk ədəbiyyatı (VIII-XII əsrlər).

4.İslam sivilizasiyasında türk ədəbiyyatı - Klassik türk ədəbiyyatı (XIII – XIX əsrin I yarısı).

5.Qərb sivilizasiyasında türk ədəbiyyatı (XIX əsrin II yarısı – XX əsrin I rübü);

6.Cümhuriyyət dönəmi türk ədəbiyyatı.

7. Şifahi türk ədəbiyyatı və folklor (Xalq ədəbiyyatı). Ergenekon, Bozqurd, Şu, Oğuz Kağan dastanları. Dədə Qorqud Dastanı. Qazavatnamələr, Battalnamə, Saltuknamə, Danişməndnamə, Oğuznamələr, Həmzənamələr. Xalq hekayələri.

7.1. Şifahi türk ədəbiyyatı və folklor janrları. Anonim (müəllifsiz) janrlar: dastan, mani (bayatı), türkü, fıkra (lətifə), atasözü, bilməcə (tapmaca), ninni (laylay), alqış, qarğış, təkərləmə, əfsanə, masal (nağıl). Dini (sufi) məzmunlu janrlar: ilahi, nəfəs, qələndəri, nutuk, hikmət, devriyə.

8.Aşıq ədəbiyyatının forma və şəkilləri: qoşma və formaları (gözəlləmə, daşlama, qoçaqlama), səmai, varsağı (gəraylı).

9.Şifahi xalq yaradıcılığına aid dram tamaşaları və əyləncəli oyun janrları: qaragöz, orta oyunu, məddah.

10.Aşıq ədəbiyyatının ən tanınmış nümayəndələri: Öksüz Dədə, Qaracaoğlan, Aşıq Ömər, Gövhəri, İbrahim Dərdli, Dadaloğlu, Bayburtlu Zehni, Aşıq Əmrah, Aşıq Şenlik, Seyrani, Aşıq Veysəl.

11.İslamaqədərki Erkən Orta əsrlər yazılı türk abidələri.

11.1.Orxon-Yenisey abidələri (Kül tiqin, Bilgə xaqan, Tonyukuk abidələri).

11.2.Yusif Xas Xacib (Yusuf Balasaqunlu) və onun “Kutadqu bilik” didaktik poeması.

11.3.Mahmud Kaşqarlı və onun “Divani-luğat-it türk” ensilkopedik lüğəti.

11.4.Əhməd Yəsəvi və onun “Divani-hikmət” əsəri.

11.5.Ədib Əhməd Yüknəki və onun “Atabət-ül həqayiq” əsəri.

12.Klassik türk Divan ədəbiyyatı.

12.1.Klassik “Divan” şer toplusunun tərtib qaydası: qəsidələr ( tovhid, münacat, nət, mədhiyyə, mərsiyyə, fəxriyyə və s.), qəzəllər, bəndli şerlər, qitələr, rübailər, maddeyi-tarixlər, tək-tək beytlər və misralar.

13.Klassik dövrün ədəbi-bədii janrları. Nəsr və nəzm anlayışları. Sadə nəsr, orta nəsr, süslü (bədii) nəsr. Nəsr forma və şəkilləri: məktubat, münşəat, tarix-vaqeənamə, təzkirə, səyahətnamə, səfəratnamə, ilkin bədii nəsr nümunələri və s. Poetik janrlar və nəzm şəkilləri: qəzəl, qəsidə, rübai, tuyuğ, məsnəvi, tərkibi-bənd, tərci-i bənd, şərqi, mürəbbe, müəmma və digər bəndli şeir formaları.

14.XIII-XVI əsrlər türk ədəbiyyatı.

15.Təkkə (Təsəvvüf) xalq ədəbiyyatı və nümayəndələri: Hacı Bayram Vəli, Əşrəfoğlu Rumi, Qayqusuz Abdal, Pir Sultan Abdal.

15.1.Yunus Əmrənin həyat və yaradıcılığı.

16.Yazılı təsəvvüf ədəbiyyatı. Əhməd Fəqih, Şəyyad Həmzə və Aşıq Paşanın yaradıcılığı. Aşıq Paşanın “Qəribnamə” əsəri.

16.1.Mövlana Cəlaləddin Ruminin həyat və yaradıcılığı. Onun “Məsnəvi”si və “Divani-kəbir”i.

16.2.Sultan Vələdin həyat və yaradıcılığı. Onun “Səlcuqnamə” əsəri.

16.3.Süleyman Çələbinin həyat və yaradıcılığı. Onun “Vesiletün-nicat” (“Mövlud”) əsəri bu mövzuda yazılan əsərlərin ilk nümunəsi kimi.

17.Dünyəvi Divan ədəbiyyatı. Xoca Dəhhaninin həyat və yaradıcılığı.

17.1.Yusuf Şeyxi Gərmiyani. Onun “Xərnamə” satirik məsnəvisi və “Xosrov və Şirin” poeması.

17.2.Tacəddin İbrahim Əhmədinin həyat və yaradıcılığı. Onun “İsgəndərnamə” və “Cəmşid və Xurşud” məsnəviləri.

17.3.Fəxri və onun “Xosrov və Şirin” poeması türk ədəbiyyatında Nizami “Xəmsə”sinə daxil olan mövzulardan ilki kimi.

17.4.Məsud bin Əhməd və onun ”Süheyl və Növbahar” məsnəvisi. S.Şirazinin “Bustan” əsərinin türk dilinə ilk tərcüməsi.

17.5.Məddah Yusuf və onun ”Vərqa və Gülşah” poeması.

17.6.XIV əsrin məsnəvi ustası Sədrəddin Mustafa Şeyxoğlu və onun ”Xurşid və Fərəhşad” poması.

17.7.”Avni” təxəllüsü ilə lirik şeirlər yazan Sultan Mehmet Fateh və ”Adli” təxəllüsü ilə şeirlər yazan Sultan Bayezid. Cəm Sultanın türkçə və farsça “Divan”ı.

17.8.Türk ədəbiyyatında ilk “Xəmsə” müəllifi Həmdullah Həmdi Çələbi və onun poemaları: ”Yusif və Züleyxa”, ”Leyla və Məcnun”, ”Qiyafətnamə”, ”Töhfətül-üşşak”, “Mövlud”.

17.9.Lamei və onun “Xəmsə”si. “Bursa Şəhrəngizi”. Lameinin nəsri.

17.10.Türk Divan poeziyasında ilk şəhrəngiz müəllifi İsa Məsihi.

17.11.İsa Nəcatinin lirik qəzəlləri.

17.12.Öz zəmanəsinin “Şairlər əmiri” adlanan XV əsr məşhur sənətkarı və türk yazılı ədəbiyyatında şərqi janrında yazılan ilk şeirlərin müəllifi Əhməd Paşa.

17.13.Zatinin satira yaradıcılığı.

17.14.Hələ sağlığında ”Sultanüş-şüəra” (şairlər sultanı) adını daşıyan Baqinin (Mahmud Əbdülbaqi) həyat və yaradıcılığı. Onun Qanuni Sultan Süleymanın və-fatı münasibətiylə 1566-cı ildə yazdığı məşhur “Qanuni mərsiyyəsi”.

17.15.Klassik türk Divan ədəbiyyatında Şeyxinin “Xərnamə”sindən sonra ən məşhur satirik əsər sayılan “Tərkibi-bənd”in müəllifi Ruhi Bağdadlının “Divan”ı.

18.İlk qadın türk şairləri: Zeynəb Xatun və Mehri Xatunun poeziyası.

19.XVII-XVIII əsrlər türk ədəbiyyatı.

19.1.Qəzəl janrının ən böyük ustadlarından Şeyxülislam Yəhya Bəyin həyat və yaradıcılığı. Onun “Divanı”.

19.2.Mehmet Nərgisinin yaradıcılığı. Onun mənsur “Xəmsə”si.

19.3.Türkiyə ədəbiyyatının ən böyük qəsidəçilərindən Ömər Nəfinin həyat və yaradıcılığı. Nəfinin satirası. Onun “Sihami-qəza” (“Qəza oxları”) həcvlər toplusu.

19.4.Bu dönəmin nəsri. Katib Çələbinin nəsr yaradıcılığı. Övliya Çələbinin “Səyahətnamə” əsəri. İyirmisəkkiz Mehmet Çələbinin “Paris səfarətnaməsi”.

19.5.Yusuf Nabinin həyat və yardıcılığı. Onun nəsr və nəzm əsərləri: “Qəza-namə”, “Töhfətül-hərameyn”, “Xeyriyyə”, “Xeyrəbad”, “Divan”.

19.6.Alaəddin Sabitin həyat və yardıcılığı. Onun poemaları: ”Bərbərnamə”, ”Zəfərnamə”, ”Ədhəm və Hüma”, ”Dərənamə”.

19.7.Lalə dövrü ədəbiyyatı və Əhməd Nədimin həyat və yaradıcılığı. Onun yazılı ədəbiyyata şifahi xalq yaradıcılığından gətirdiyi yeniliklər və şərqiləri.

19.8.Mehmet Bəliğ və onun məsnəviləri: ”Kəfşgərnamə”, ”Hammamnamə”, ”Bərbərnamə”, ”Hayyatnamə”.

19.9.Divan ədəbiyyatının tanınmış qadın şairlərindən Zübeydə Fitnət Xanım.

19.10.Türk Divan ədəbiyyatının sonuncu böyük şairi Şeyx Qalibin həyat və yaradıcılığı. Onun “Hüsn və Eşq” sufi-didaktik məsnəvisi.

19.11.Dövlət mətbəəsinin qurulması və ilk kütləvi kitab çapı (1729).

20.XIX əsr türk ədəbiyyatı.

20.1.Keçəçizadə İzzət Molla və onun ”Mihnet Keşan” adlı mənzum səyahətnaməsi.

20.2.Akif Paşanın həyatı və nəsr yaradıcılığı. Onun “Vərasət məktubları”.

20.3.İlk realist hekayə və povestlər yazan türk nasirlərindən biri Nabizadə Nazimin həyat və yaradıcılığı. Onun “Kara Bibik” və “Zəhra” əsərləri.

20.4.XIX əsr türk ədəbiyyatının ilk qadın romançısı Fatma Aliyə Xanım. Ədibin “Muhadarat”, “Refet” və “Udi” romanları.

20.5.”Pinti Həmid”, “Para məsləyi” kimi komedyaların müəllifi Teodor Kasap.

20.6.Samipaşazadə Sezai ”Sərgüzəşt” adlı ilk realist türk romanlarından birinin müəllifi və kiçik hekayə ustası kimi. Ədibin “Kiçik şeylər” hekayələr kitabı.

20.7.Sultan Əbdülhəmid haqqında yazdığı həcvlərinin yer aldığı ikicildlik “Dəccal” kitabına görə ölkədən qaçmağa məcbur olan satirik ədib Şair Əşrəf.

20.8.Rəcaizadə Mahmud Əkrəm və onun ilk realist türk romanlarından biri olan “Araba sevdası” əsəri. Ədibin poeziyası: “Zemzeme” (3 cild), “Yadigarı-şebab”, “Vüslət yaxud sürəksiz sevinc” şeir kitabları.

20.9.”Nümuneyi-ədəbiyati-osmaniyyə” adlı ilk nəsr antologiyasının (müntəxabatının) tərtibçisi və mətbəə qurucusu kimi Əbüzziya Tofiq Bəy.

20.10.Türkiyənin ilk dilçi-alimlərindən biri, “Qamusi-türki” ensiklopedik lüğətinin tərtibçisi Şəmsəddin Sami.

20.11.Türk ədəbiyyatının ilk materialist tənqidçi-filosofu Bəşir Fuad.

21.Tənzimat ədəbiyyatı (1860-1895). XIX əsrin II yarısının maarifçilik, qərbçilik, osmanlıçılıq, ümmətçilik kimi siyasi-ideoloji-ədəbi cərəyan və təmayülləri. Tənzimat ədəbiyyatı nümayəndələri haqqında ümumi məlumat.

21.1.Ziya Paşanın həyat və yaradıcılığı. Onun “Zəfərnamə”, “Tərci-i bənd və Tərkib-i bənd” və “Röya” əsərləri.

21.2.Türk dilində ilk mətbu orqanın – “Təqvimi-vəqayi” qəzetinin nəşr edilməsi. Türk dilində ilk özəl qəzet olan “Tərcümani-əhval”ın nəşri.

21.3.İbrahim Şinasinin həyat və yaradıcılığı. Onun “Şair evlənməsi” pyesi. Ədibin publisistik fəaliyyəti, yeni nəsr dil və üslubunun formalaşmasındakı rolu.

21.4.Namiq Kamalın həyat və yaradıcılığı. Poeziyası. Dram əsərləri: ”Gülnihal”, ”Vətən yaxud Silistre”, ”Cəlaləddin Xarəzmşah”. Onun romanları: ”Cəzmi” və “İntibah”. Müasir tipli ilk türk romanın ortaya çıxışı. N.Kamalın bədii publisistikası. Onun məktub, xatirə və bioqrafiya əsərləri.

21.5.Əhməd Midhədin həyat və yaradıcılığı. Ədibin roman yaradıcılığı. Onun “Fəlatun Bəy və Rakım Əfəndi”, “Parisdə bir Türk”, “Həsən məllah”, “Hüseyn fəllah” və s. əsərləri. Onun publisistikası.

21.6.Hələ sağlığında “Şairi-əzəm” adını qazanan və eyni adlı şeiri olan şair Əbdülhəq Hamidin həyat və yaradıcılığı. Onun poeziyası. Ədibin poemaları və “Məqbər”. Dram əsərləri: ”Hind qızı”, ”Nesteren”, ”Tezer”, “Macera-yı aşk”, ”İçli kız”, ”Eşber”, ”Tarık”.

21.7.Müəllim Nacinin həyat və yardıcılığı. Onun “Ömərin çocuqluğu” əsəri və məktubları.

22.Türk ədəbiyyatının ”Sərvəti-fünun” dönəmi. ”Sənət sənət üçündür” devizi. “Sərvəti-fünun” ədəbi qrupuna (1896-1901) daxil olan ədiblər haqqında ümumi məlumat.

22.1.Tofiq Fikrətin həyat və yaradıcılığı. Onun əsərləri: ”Rübabi-şikəstə”, ”Xaluqun dəftəri”, ”Rübabın cavabı”. Sənətkarın ”Şərmin” uşaq şeirləri kitabı.

22.2.Cənab Şahabəttinin poeziyası və bədii publisistikası. Onun “qış musiqisi” mənasına gələn “Elhanı-şita” şeiri. Ədibin “Həcc yolunda” və “Avropa məktubları” publisistik əsərləri.

22.3.Türk nəsrində ilk psixoloji roman: Mehmet Raufun “Eylül” (“Sentyabr”) romanı.

22.4.”Sərvəti-fünun” ədəbi məktəbinin ən görkəmli qadın şairi Nigar Xanımın poetik yaradıcılığı.

22.5.”Sərvəti-fünun” ədəbi məktəbinə daxil olmayan yazıçı-publisist Əhməd Rasim. İlk peşəkar publisist kimi ədibin yaradıcılığı və onun fıkraları. Ədibin “Falaqqa” əsəri.

22.6.Xalid Ziya Uşaqlıgilin roman yaradıcılığı. Ədibin ”Aşkı-memnu” ”Mavi və qara”, ”Fərdi və şürəkası”, ”Kiçik həyatlar” əsərləri.

22.7.”Ədəbiyyatı-cədidə” dönəmində yaşadığı halda, bu cərəyana qoşulmayan tanınmış türk nasiri Hüseyn Rəhmi Gürpınarın həyat və yaradıcılığı. Ədibin romanları: ”Şıpsevdi”, ”Qulyabani”, ”Şık”, ”Sevda peşində”.

23.XX əsrin I rübündə türk ədəbiyyatı.

24.“Fəcri-ati” ədəbi qrupu (1909-1912): Cəlal Sahir, Əhməd Haşim, Həmdullah Sübhi, Rəfiq Xalid, Yaqub Qədri və b.

24.1.Həmdullah Sübhinin həyatı, yaradıcılığı və xitabətləri (bədii nitqləri).

24.2.Rəfiq Xalid Karay və onun ”Məmləkət hekayələri” əsəri.

25.“Milli ədəbiyyat” qrupu.

25.1.Mehmet Emin Yurdaqul və onun poetik yaradı-cılığı. Ədibin türkçü-milliyyətçi ideyaları və “Türk sazı”, “Türkcə şeirlər”, “Ey türk oyan” və s. kitabları.

25.2.Türk novellisti Ömər Seyfəddinin hekayə yaradıcılığı. Ədibin “Əfruz Bəy”, “Bomba”, “Hərəm”, “Uca topuqlar”, “Yalnız Efe”, “Falaqqa” əsərləri.

25.3.Türkçülük məfkurəsi və Ziya Göyalp. Ədibin poeziyası: ”Qızıl alma”, “Yeni həyat”, “Altun işıq” şeir kitabları. Onun “Türkçülüğün əsasları” kitabı.

26.”Hecanın beş şairi” adlanan ədəbi qrupa daxil olan şairlərin həyat və yaradıcılığı: Enis Behic Koryürək, Yusuf Ziya Ortac, Faruk Nafiz Çamlıbel, Orhan Seyfi Orhon, Xalid Fəxri Ozansoy.

27.Milli-azadlıq hərəkatı (1919-1922) və türk ədəbiyyatı. Rövşən Əşrəf Ünaydın və onun Mustafa Kamal haqqında bədii-publisistik əsərləri.

27.1.Xalidə Ədibin həyat və yaradıcılığı. Ədibin romanları: “Vurun qəhbə-yə”, “Oddan köynək”, “Səviyyə Talib”. X.Ədibin memuarları.

27.2.Yaqub Qədri Qaraosmanoğlunun həyat və yaradıcılığı. Ədibin romanla-rı: “Nur Baba”, “Yabançı”, “Ankara”. Y.Qədrinin bədii publisistikası.

27.3.Rəşad Enis (“Qılıncımı sıyırıram”, “Qonq vurdu” romanları) və Aka Gündüzün (“Dikmən Ulduzu”, “İki süngü arasında” romanları) nəsr yaradıcılığı.

28.Türk poeziyasında İslamçılıq cərəyanının görkəmli nümayəndəsi və “İstiqlal marşı”nın müəllifi Mehmet Akif Ərsoy. Onun “Safahat” başlığı altında toplanan əsərləri: “Süleymaniyə kürsüsündə”, “Fatih kürsüsündə”, “Asim” və s.

29.Klassik əruzun son nümayəndəsi Yəhya Kamalın poetik yaradıcılığı. Sənətkarın “Kəndi göy qübbəmiz”, “Əski şeirin rüzgarilə” kitabları.

29.1.Filosof - şair Rza Tofiqin ədəbi fəaliyyəti. Ədibin “Sərabı-ömrüm” şeirlər kitabı.

30.Yeni dövr (Cümhuriyyət dönəmi) türk ədəbiyyatı

30.1.Rəşad Nuri Güntəkinin həyat və yaradıcılığı. Ədibin romanları: "Çalıquşu", "Dodaqdan qəlbə", "Yaşıl gecə", "Damğa", "Yarpaq dökümü". Yazıçının bədii publisistikası və "Anadolu qeydləri" kitabı.

30.2.Türkiyənin ən tanınmış simvolist şairlərdən biri kimi Əhməd Haşim. Onun həyat və yaradıcılığı. "Göl saatları" və "Piyalə" şeir kitabları.

30.3.Arif Nihad Asyanın poetik yaradıcılığı. Ədibin "Bir bayraq rüzgar gözləyir", "Köklər və budaqlar", "Dualar və aminlər" şeir kitabları.

30.4.Behcət Kamal Çağların poeziyası. Şairin "Ərciyaşdan qopan çığ", "Burada bir ürək döyünür", "Məndən içəri" şeir kitabları.

30.5.Mithat Camal Kuntayın yaradıcılığı. Ədibin əsərləri: "Kamal" (pyes), Üç İstanbul (roman), "Türkün şahnaməsindən" (şeirlər).

31."Yeddi məşəl" adı verilən ədəbi qrup və onun nümayəndələri: Səbri Esat Siyavuşgil, Yaşar Nabi Nayır, Vəsfi Mahir Qocatürk, Ziya Osman Saba.

32.Sərbəst şeir. Nazim Hikmətin həyat və yardıcılığı. Ustad sənətkarın poemaları: "Moskva simfoniyası", "Zoya", "Benerci özünü niyə öldürdü?", "Si-Ya-U". Ədibin Bakıda nəşr edilmiş "Günəşi içənlərin türküsü" adlı ilk şeirlər kitabı. N.Hikmətin romanları: "Yaşamaq gözəl şeydir qardaşım", "Yaşıl almalar", "Qan danışmaz". Onun dramaturgiyası: "Kəllə", "Şöhrət və ya unudulan adam".

33."Birinci yeni" adlandırılan "Qərib" ədəbi qrupu və onun qurucuları: Orxan Vəli, Məlik Cövdət Anday, Oqtay Rıfat Horozcunun həyatı və poetik yaradıcılığı.

34.Ən yeni dövr türk ədəbiyyatı.

35."Kənd ədəbiyyatı" cərəyanı nümayəndələrinin ədəbi fəaliyyətinə toplu baxış: Mahmud Makal, Behzad Ay, Mehmet Başaran, Xeyrəddin Uysal, Fakir Baykurt, Dursun Akçam, Osman Şahin.

35.1.Mahmud Makalın həyat və yaradıcılığı. Onun əsərləri: "Bizim kənd", "Tərəqqi nağılı", "O tərəflərin havası", "Xəyal və gerçək".

36.Yeni və ən yeni türk poeziyasına toplu baxış: Cahid Sidqi Tarancı, Fazil Hüsnü Dağlarca, Həsən İzzəddin Dinamo, Ataol Bəhramoğlu, Şükran Qurdaqul, Attila İlhan, Əhməd Arif, Mətin Eloğlu, Həsən Hüseyn, Bədri Rəhmi Eyüboğlu,

Cahid Kulebi, Behcət Necatigil, İlhan Berk, Sabahəddin Qüdrət Aksal, Necati Cumalı, Ceyhun Atuf Kansu, Əhməd Qüdsi Tecer, Əhməd Özər və b.

36.1.Ahmet Muhip Dranasın poeziyası. Ədibin məşhur "Fahriyə Abla" şeri. Onun pyesləri: "Kölgələr", "O belə istəməzdi".

36.2. Cahid Sıtkı Tarancının poeziyası. Onun "Otuz beş yaş" şeiri.

36.3.Nəcib Fazil Qısakürəyin həyat və yaradıcılığı. Onun yaradıcılığında metafizik fəlsəfə və dini-mistik təzahürlər. Ədibin şeir kitabları: "Kaldırımlar" ("Səkilər"), "Çilə" ("Əzab"), "Hörümçək toru", "Mən və o birisi", "Sonsuzluq karvanı". Nəsri və publisistikası: "Bir neçə hekayə, bir neçə təhlil", "Ruh burxuntularından hekayələr", "Çərçivə", "Çölə enən nur". Dram əsərləri: "Toxum", "Rəis Bəy", "Bir adam yaratmaq".

36.4.Hilmi Yavuzun poeziyası. "Baxış quşu", "Büyü'sün yaz" şeir kitabları.

36.5.Yavuz Bülənd Bakilərin milliyyətçi-vətənpərvər poeziyası. "Yalnızlıq" kitabı.

37.Yeni və ən yeni türk nəsrinə toplu baxış: Orxan Kamal, Mehmet Seyda, Kamal Tahir, Əhməd Həmdi Tanpınar, Oqtay Akbal, Haldun Taner, Tarık Buğra, Müzəffər Buyruqçu, Tarık Dursun, Nevzat Üstün, A.Kadir, Səlim İleri, Kərim Korcan, Ərdal Öz, Bəkir Yıldız və b.

37.1.Suad Dərvişin həyat və yaradıcılığı. Ədibin əsərləri: "Fosforlu Cevriyə" və "Ankara məhbusu".

37.2.Sədri Ertəm və onun "Cəhrələr dayananda", "Silindir şapqa geyən kəndli" kimi realist romanları.

37.3.Falih Rıfqı Atayın bədii publisistikası. Ədibin xatirə və səyahət oçerkləri: "Atəş və günəş", "Dəniz aşırı", "Yeni Rusya, "Çankaya" və s.

37.4.Əbdülhəq Şinasi Hisarın həyatı və nəsr yaradıcılığı. Ədibin romanları: "Fahim Bəy və biz", "Çamlıcadakı yeznəmiz". Memuar kitabları: "Boğaziçi mehtabları", "Yəhya Kamala vida", "İstanbul və Pyer Loti".

37.5.Səid Faiq Abasıyanığın həyat və yaradıcılığı. Onun hekayələrində "xırda adam və onun problemləri" mövzusu. Ədibin hekayə kitabları: "Samovar", "Sərnic", "Şahmərdan", "Lüzumsuz adam" və s. Romanları: "Mədarı-məişət qayı-

ğı", "Qeyb olmuş birisi axtarılır". Yazıçının "Məhkəmə qapıları" oçerk-reportajları.

37.6.Memduh Şevket Esendalın "Təmiz sevgilər" hekayələr kitabı və "Ayaşlı və kiracıları" romanı.

37.7.Səbahəddin Əlinin həyat və yaradıcılığı. Sənətkarın realist və romantik roman və povestləri: "Quyucaqlı Yusuf", "Xanəndə mələk", "Xəz mantolu Madonna", "Dəyirman", "İçimizdəki şeytan". Sənətkarın hekayə kitabları: "Səs", "Şüşə malikanə", "Kəl arabası" və s.

37.8.Nihal Atsızın həyat və yaradıcılığı. Ədibin tarixi tədqiqatları, milliyyətçi-idealist şeir və romanları: "Yolların sonu", "Bozqurdların ölümü", "Bozqurdlar dirilir" və s.

37.9. Peyami Səfanın həyat və yaradıcılığı. Ədibin psixoloji və metafizik romanları: "Doqquzuncu xariciyə palatası", "Sözdə qızlar", "Şimşək", "Fatih-Hərbiyyə", "Madumazel Noralyanın kreslosu", "Yalnızıq".

37.10.Halikarnas Balıqçısının (Cavad Şakir Qabaağaclı) həyatı və ədəbi fəaliyyəti. "Aqanta, Burina, Burinata", "Ötələrin çocuğu", "Uluç Rəis" romanları.

37.11.Kamal Tahirin həyat və yardıcılığı. Onun romanları: "Dövlət ana", "Əsir şəhərin həyatı", "Əsir şəhərin məhbusu", "Qurd qanunu", "Yorğun mübariz".

37.12.Yaşar Kamalın həyat və yardıcılığı. Yazıçının roman və povestləri: "İncə Məmməd", "Ölməz otu", "Ağrıdağı əfsanəsi", "İlanı öldürsələr", "Tənəkə". Yaşar Kamalın bədii publisistikası: "Bir bulud qaynayır", "Bu diyar başdan başa", "Allahın əsgərləri".

37.13.Orxan Xəncərlioğlunun həyat və yaradıcılığı. Yazıçının "Əli", "Qaranlıq dünya", "Böyük balıqlar", "Əkilməmiş torpaqlar", "Oyun" adlı romanları.

37.14.Kamal Bilbaşarın roman yaradıcılığı. "Cemo" və "Memo" əsərləri.

37.15.Orxan Kamalın həyat və yaradıcılığı. Ədibin hekayə kitabları: "Ekmək qovğası", "Sərxoşlar", "Camaşırcının qızı", "Tətil", "72-ci hücrə" və s. Romanları: "Yad qızı", "Avara yıllar", "Murtaza", "Cəmilə", "Müfəttişlər müfəttişi", "Qumarbaz" və s.

37.16.Səmim Qocagözün həyat və yaradıcılığı. Ədibin hekayə və romanları: “Onminlərin dönüşü”, “Bir cüt öküz”, “Əhmədin quzuları”, “Qalpaqlılar”, “Dolu-dizgin”.

37.17.Oqtay Akbalın həyat və yaradıcılığı. Ədibin roman və hekayələri. “Öncə ekməklər bozuldu”, “Bizans dəfinəsi”, “Qəriblər küçəsi”, “Suçumuz insan olmaq”, “Bərbər aynası”.

37.18.Çətin Altanın həyat və yaradıcılığı. Ədibin romanları və bədii publisistikası. “Böyük gözaltı”, “Bir yumaq insan”, “Viski”, “Daş”, “Qopuq-qopuq”.

37.19.Bəkir Yıldızın həyat və yaradıcılığı. Onun hekayə və romanları: “Reşo Ağa”, ”Harran”, ”Halqalı kölə”, “Qaçaqmalçı Şahan”, “Kərbəla”. Ədibin bədii publisistikası: “Alman çörəyi”, “Harran”, “Güneydoğu Anadolu zindanı”.

37.20.XX əsrin 60-70-ci illər türk ədəbiyyatında “Bunalım” adı verilən ədəbi cərəyan. Leyla Erbil, Necati Tosuner, Tarık Buğra, Fərid Edgü, Lətifə Təkin və b. ədiblər haqqında ümumi məlumat.

38.“İkinci yeni” və ya “Maviçilər” adı verilən ədəbi qrup və ən tanınmış nümayəndələri: Turqut Uyar, Ədib Cansevər, Camal Sürəyya.

39.Müasir türk satirik ədəbiyyatının dünyaşöhrətli nümayəndəsi Əziz Nesinin həyat və yaradıcılığı. Əziz Nesinin dram əsərləri: ”Toros canavarı”, ”Bir az gələrsinizmi?”, ”Bir şey et Met”, ”Tut əlimdən Rovni”. Ə.Nesinin yüzdən artıq kitabda toplanan hekayələri və romanları. “İndiki uşaqlar möcüzədir”, “Gol kralı”, “Damda dəli var”, “Fil Həmdi necə yaxalandı” kitabları. Onun bədii publisistikası.

39.1. Haldun Tanerin həyat və yaradıcılığı. Ədibin hekayələri və pyesləri. “Yaşasın demokratiya”, “Şişxanaya yağış yağırdı”, “Keşanlı Əli dastanı”, “On ikiyə bir var”. Onun publisistikası: “Dəvəquşuna məktublar”, “Yaz-poz”.

40.Cümhuriyyət dövrü türk dramaturgiyasına toplu baxış: Cavad Fehmi Başkut, Refik Erduran, Melih Cevdet Anday, Vasif Öngörən, Turan Oflazoğlu, Haldun Taner, Çetin Altan, Nəcib Fazil Qısakürek, Əhməd Qüdsi Tecer, İsmail Haqqı Baltaçıoğlu, Əziz Nesin, Rıfat Ilqaz, Orhan Asena, Cahid Atay və b.

40.1.Yazıçı-dramaturq Rifat Ilqazın həyat və yaradıcılığı. Ədibin ”Ha babam sinifi” (roman və pyes), ”Ha babam sinifi sinifdə qaldı” və s. əsərləri.

41.Çağdaş Türkiyənin qadın yazıçıları haqqında ümumi məlumat: Ədalət Ağaoğlu, Sevgi Soysal, Nazlı Eray, Nezihe Araz, Gülten Dayıoğlu, Füruzan, Ayşe Kulin, Buket Uzuner, Pınar Kür, İnci Aral, Elif Şafak, Gülten Akın, Duyğu Asena.

42.Müasir türk postmodernist romanı. 2006-cı il Nobel ədəbiyyat mükafatı laureatı Orxan Pamukun həyat və yaradıcılığı. Ədibin romanları: ”Cövdət Bəy və oğulları”, ”Qara kitab”, ”Yeni həyat”, “Mənim adım Qırmızı”, ”Qar” və s. O.Pamukun bədii publisistikası: “Digər rənglər”, “İstanbul – xatirələr və şəhər”.

## Mövzu planı

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Türk ədəbiyyatının tarixi-xronoloji inkişaf mərhələləri | 6 | 4 | 2 |
| 2 | İslamaqədərki türk ədəbiyyatı və epos mədəniyyəti | 2 | 2 | |
| 3 | Qədim və Erkən Orta əsrlər türk ədəbiyyatı (VIII-XII əsrlər) | 4 | 4 | |
| 4 | İslam sivilizasiyasında Klassik türk ədəbiyyatı (XIII – XIX əsrin I yarısı) | 6 | 4 | 2 |
| 5 | Qərb sivilizasiyasında türk ədəbiyyatı (XIX əsrin II yarısı – XX əsrin I rübü) | 4 | 2 | 2 |
| 6 | Cümhuriyyət dönəmi türk ədəbiyyatı | 4 | 2 | 2 |
| 7 | Şifahi türk ədəbiyyatı və folklor | 4 | 2 | 2 |
| 8 | Aşıq ədəbiyyatının forma və şəkilləri | 4 | 4 | |
| 9 | Şifahi xalq yaradıcılığında tamaşalar və əyləncəli oyun janrları | 2 | 2 | |
| 10 | Aşıq ədəbiyyatının ən tanınmış nümayəndələri | 4 | 2 | 2 |
| 11 | İslamaqədərki Erkən Orta əsrlər yazılı türk abidələri | 4 | 4 | |
| 12 | Klassik türk  Divan ədəbiyyatı | 8 | 6 | 2 |
| 13 | Klassik dövr türk ədəbiyyatının ədəbi-bədii janrları | 4 | 2 | 2 |
| 14 | XIII-XVI əsrlər türk ədəbiyyatı | 6 | 4 | 2 |
| 15 | Təkkə (Təsəvvüf) xalq ədəbiyyatı | 4 | 4 | |
| 16 | Yazılı təsəvvüf ədəbiyyatı | 4 | 2 | 2 |
| 17 | Dünyəvi Divan ədəbiyyatı | 4 | 2 | 2 |
| 18 | İlk qadın türk şairləri | 2 | 2 | |

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 19 | XVII-XVIII əsrlər türk ədəbiyyatı | 6 | 4 | 2 |
| 20 | XIX əsr türk ədəbiyyatı | 6 | 4 | 2 |
| 21 | ”Tənzimat” ədəbiyyatı | 8 | 6 | 2 |
| 22 | Türk ədəbiyyatında ”Sərvəti-fünun” dönəmi | 4 | 2 | 2 |
| 23 | XX əsrin I rübündə türk ədəbiyyatı | 4 | 2 | 2 |
| 24 | “Fəcri-ati” ədəbi qrupu | 4 | 2 | 2 |
| 25 | “Milli ədəbiyyat” qrupu | 4 | 2 | 2 |
| 26 | ”Hecanın beş şairi” | 4 | 2 | 2 |
| 27 | Milli-azadlıq hərəkatı və türk ədəbiyyatı | 4 | 2 | 2 |
| 28 | Türk poeziyasında İslamçılıq cərəyanı və Mehmet Akif Ersoy | 2 | 2 | |
| 29 | Klassik əruz və Yəhya Kamal | 2 | 2 | |
| 30 | Yeni dövr (Cümhuriyyət) türk ədəbiyyatına toplu baxış | 2 | 2 | |
| 31 | ”Yeddi məşəl” ədəbi qrupu | 2 | 2 | |
| 32 | Sərbəst şeir. Nazim Hikmət | 4 | 2 | 2 |
| 33 | ”Birinci yeni” – ”Qərib” ədəbi qrupu | 2 | 2 | |
| 34 | Ən yeni dövr türk ədəbiyyatı | 6 | 4 | 2 |
| 35 | “Kənd ədəbiyyatı” cərəyanı. Mahmud Makal | 4 | 2 | 2 |
| 36 | Yeni və ən yeni türk poeziyasına toplu baxış | 6 | 4 | 2 |
| 37 | Yeni və ən yeni türk nəsrinə toplu baxış | 6 | 4 | 2 |
| 38 | “İkinci yeni” – (“Maviçilər”) ədəbi qrupu | 2 | 2 | |
| 39 | Müasir türk satirik ədəbiyyatı. Əziz Nesin | 6 | 4 | 2 |
| 40 | Cümhuriyyət dövrü türk dramaturgiyasına toplu baxış | 4 | 4 | |
| 41 | Çağdaş Türkiyənin qadın yazıçıları | 4 | 2 | 2 |
| 42 | Müasir türk postmodernist romanı. Orxan Pamuk | 4 | 2 | 2 |
| | Cəmi | 176 | 120 | 56 |

**Ədəbiyyat:**


1. Aydın Abi Aydın (Abıyev A.). Türkiyə ədəbiyyatı tarixi. I cild. Bakı, Tural NPM, 2005
2. Abıyev A. Ömər Seyfəddinin həyatı və yaradıcılığı, Bakı, Elm, 1978.
3. Araslı Nüşabə. Nizami və türk ədəbiyyatı, Bakı, Elm, 1980.
4. Aydan Xəndan, Rəfiq Zəka. Yəhya Kamal Bəyatlı yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, Bakı, Nurlan, 2002.
5. Babayev Aqşin. Nazim Hikmət, Bakı, İşıq, 1978.

6.Cəfərov Nizami. Qədim türk ədəbiyyatı. Bakı, AzAtaM, Nurlan NPM, 2004.
7.Əhmədov Ə. Rəşad Nurinin romanları, Bakı, Azərnəşr, 1965.
8.Əliyeva J. Çağdaş türk şerinin poetikası, Bakı, Elm, 2000.
9.Hacıyeva Maarifə. Türk aşıqları. Bakı, Elm, 2004.
10.Hüseynov R. Tofiq Fikrət, Bakı, Yazıçı, 1981.
11.Qasımlı Sədaqət. Haldun Tanerin bədii nəsri. Bakı, "İrşad", 1994.
12.Quliyev E. Türkiyə türk ədəbiyyatı (XIX – XX əsrlər), Bakı, Orxan, 2003.
13.Quliyeva-Qafqazlı Xalidə. Qaracaoğlan. Bakı, Elm, 1985.
14.Qurbanov A.B. Əbdülhəq Hamid. Bakı, 1987.
15.Kərimov Ə. Türk aşıq poeziyası yeni mərhələdə, Bakı, Nurlan NPM, 2002.
16.Rəsulov Ə.A. Türk sənədli-bədii nəsri. Bakı: "Elm", Nurlan NPM, 2004.
17.Akyüz Kenan. Modern Türk Edebiyatının Ana Çizgileri. Ankara: AÜ Yn., 1979
18.Banarlı Nıhat Sami. Resimli Türk Edebiyatı Tarihi: 2 c., İstanbul: MEB, 1987.
19.Bezirci Asım. 2.Yeni Olayı. İstanbul: Tel Yayınları, 1974.
20.Kabaklı Ahmet. Türk Edebiyatı: 3 ciltte. İstanbul: Otağ Matbaacılık, 1978.
21.Karaalioğlu Seyit Kemal. Türk Edebiyatı Tarihi: 2 ciltte. İstanbul: İnkılap ve Aka Yayınları, 1973.
22.Köprülü Mehmet Fuat. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken, 1986
23.Kudret Cevdet. Türk Edebiyatında Hikaye ve Roman: 2 ciltte. İstanbul, 1977
24.Kurdakul Şükran. Çağdaş Türk Edebiyatı.Cumhuriyet Dönemi (1923-1950). İstanbul: Broy Yayınları, 1987.
25.Levend Agah Sırrı. Türk Edebiyatı Tarihi. Ankara: TTK Yn., 1973
26.Moran Berna. Türk Romanına Eleştirel Bir Bakış. 3 ciltte. İstanbul: İletişim Yayınları, 2001
27.Mutluay Rauf. Çağdaş Türk Edebiyatı (1908-1972). Ankara, 1973.
28.Tanpınar Ahmet Hamdi. I9-cu Asır Türk Edebiyatı Tarihi. İstanbul: Çağlayan Yayınları, 1976
29.Timurtaş Faruk K. Tarih İçinde Türk Edebiyatı. İstanbul: Boğaziçi Yn., 1990
30.Айзенштейн Н.А. Из истории турецкого реализма. Заметки о турецкой прозе (70-е годы X1X в. - 30-е годы XX в.). М.: Наука, 1968
31.Алькаева Л.О. Из истории турецкого романа. 20-50-ые годы XX в. М., 1975
32.Алькаева Л.О. Очерки по истории турецкой литературы (1908-1939гг.). М.: АН СССР, 1959
33.Ахмедов Р.С. Литературные процессы в новой турецкой литературе. Баку: Нафта-Пресс, 2002
34.Бабаев А.А. Очерки современной турецкой литературы. М.: Восточная литература, 1959
35.Бабаев Акшин А. Социальные мотивы в современной турецкой драма-тургии. Баку: Элм, 1982
36.Боролина И. В., Сонина И.Р. Литература Турции. - Литература Востока в новейщее время, М., Изд.-во МГУ, 1977.
37.Габен А.фон. Древнетюркская литература // Зарубежная тюркология, Выпуск 1, М.: Наука, 1986, с.294-344
38.Гарбузова В. С. Поэты средневековой Турции. Л.: Изд-во ЛГУ, 1969
39.Гордлевский В.А. Очерки по новой османской литературе // Избранные

сочинения в 4-х томах. т. II, М.: Наука, 1961.
40. Крачковский И.Ю. Турецкая географическая литература XУ - X1X вв. Избранные соч.: В 4-х т. Т.IV, М.- Л.: Изд.-во АН СССР, 1957
41. Маштакова Е.И. Турецкая литература конца XVII – начала XIX в. М., 1984
42. Маштакова Е.И. Из истории сатиры и юмора в турецкой литературе (XIV – XVII вв.). М.: Наука, 1972
43. Меликов Т.Д. Назым Хикмет и новая поэзия Турции. М.: Наука, 1987
44. Меликов Т.Д. Турецкая поэзия 60-х-начала 70-х годов. М.: Наука, 1980
45. Стеблева И.В. Поэтика древнетюркской литературы и ее трансформация раннеклассический период, М., Наука, 1976
46. Утургаури С.Н. Турецкая проза 60-70-х годов. Основные тенденции развития. М.: Наука, 1982

# TÜRK ƏDƏBİYYATI NƏZƏRİYYƏSİ

Ədəbiyyatşünaslıq elminin üç qolundan biri olan ədəbiyyat nəzəriyyəsinin tədqiqat predmeti türk ədəbiyyatının çoxəsrlik təşəkkülü və inkişafı mərhələlərində ortaya çıxan ədəbi-bədii növ və janrları, metod, üslub, poetik fiqurlar kimi nəzəri-estetik məsələləri, ədəbi cərəyan və məktəbləri, bu və ya digər janrın bütövlükdə poetikasıdır. Türkiyədə ədəbiyyat nəzəriyyəsinin qədim keçmişi və tarixi ənənələri olsa da, bu sahə bir elm kimi XX əsrin 30-40-cı illərindən etibarən formalaşmağa başlamışdır. Ədəbiyyat nəzəriyyəsinin mühüm bir hissəsini təşkil edən janrologiya isə daha yaxın dönəmdə – 60-70-ci illərdə meydana çıxmışdır. Əvvəllər, əsasən "türk ədəbiyyatı tarixləri"ndə nəzərdən keçirilən ədəbiyyatın nəzəri-estetik məsələləri müasir Türkiyədə daha çox "Edebiyat kuramları", "Edebiyat bilgiləri", "Edebi türler" və qismən "Kompozisyon" kitablarında işıqlandırılır.

Bu proqram magistr tələbələri yığcam şəkildə müasir Türkiyə ədəbiyyat nəzəriyyəsi haqqında məlumatlandırmaq, onun ayrı-ayrı aspektlərini öyrətmək, türk ədəbiyyatının ədəbi növ və janrları, müxtəlif ədəbi məktəb və cərəyanları haqqında bilgi vermək məqsədilə tərtib edilmişdir.

Proqramın həcmi 32 saatdır, o cümlədən 24 saat mühazirə, 8 saat seminar məşğələləri üçün nəzərdə tutulmuşdur.

1.Türk ədəbiyyatı tarixləri və nəzəri-estetik məsələlərinin işıqlandırılması.

2.Ədəbiyyat nəzəriyyəsində tədqiqat metodları: Sosial-tarixi, plüralist, formalist, psixoloji-estetik, genetik və s.

3.Türk ədəbiyyatında ədəbi qrup və məktəblər. Divan ədəbiyyatı. "Tənzimat" ədəbiyyatı. "Sərvəti-fünun" ədəbiyyatı. "Fəcri-ati" ədəbiyyatı. "Milli ədəbiyyat". Hecanın beş şairi. Yeddi məşəlçilər. Birinci yeni və ya "Qərib" ədəbi qrupu. İkinci yeni və ya "Mavi" ədəbi qrupu. Toplumcu gerçəkçilər (sosial realistlər).

4.Müasir türk ədəbiyyatının nəzəri məsələləri. Şifahi türk ədəbiyyatının növ və janrları. Anonim janrlar: dastan, mani, türkü, fıkra, atasözü, bilməcə, ninni, alqış, qarğış, təkərləmə, əfsanə, masal. Dini (sufi) məzmunlu janrları: ilahi, nəfəs, qələn-

dəri, nutuk, hikmət, devriyə. Aşıq ədəbiyyatının forma və şəkilləri: qoşma və formaları (gözəlləmə, daşlama, qoçaqlama), səmai, varsağı. Şifahi xalq yaradıcılığına aid dram tamaşaları və əyləncəli oyun janrları: qaragöz, orta oyunu, məddah.

5.Klassik türk "Divan" şeir toplusunun tərtibi qaydası: qəsidələr ( tovhid, münacat, nət, mədhiyyə, mərsiyyə, fəxriyyə və s.), qəzəllər, bəndli şeirlər, qitələr, rübailər, maddeyi-tarixlər, tək-tək beytlər və misralar. Dövrün ədəbi-bədii janrları və üslubları. Nəsr və nəzm anlayışları. Sadə nəsr və folklor üslubu, orta nəsr, süslü (bədii) nəsr, səcli (qafiyəli) nəsr. Nəsr forma və şəkilləri. Poetik janrlar və nəzm şəkilləri: qəzəl, qəsidə, rübai, tuyuğ, məsnəvi, tərkibi-bənd, tərci-i bənd, şərqi, mürəbbe, müəmma və digər bəndli şeir formaları.

6.Ədəbiyyatda məzmun və forma məsələsi. Lirik, epik, dramatik növlər. Vəznlər. Əruz vəzni və bəhrləri. Heca vəzni və qafiyə çeşidləri. Sərbəst vəzn.

7.Ədəbi-bədii növ və janrlar

8.Türk ədəbiyyatında ədəbi metod, üslub və fəlsəfi-ideoloji cərəyanlar. Klassisizm. Romantizm. Realizm. Naturalizm. Simvolizm. Maarifçilik. Qərbçilik. Ümmətçilik (İslamçılıq). Osmanlıçılıq. Türkçülük. Toplumçuluq. Modernizm. Postmodernizm.

9.Türk ədəbiyyatı nəzəriyyəsinin mənbələri. Keçən əsrin 30-40-cı illərində metodoloji baxımdan o dövrün Avropa ədəbiyyatşünaslığı ilə səsləşən ilk ədəbiyyat nəzəriyyələri meydana çıxması: A.S.Ləvəndin "Ədəbiyyat dərsləri", İ.H.Sevükün və N.S.Banarlının "Ədəbiyyat bilgiləri" kitabları və s. Çağdaş türk nəsrinin nəzəri problemlərinin XX əsrin 70-ci illərindən etibarən yeni metodlarla daha dərindən tədqiq olunması, Qərb ədəbiyyatşünaslığının modern nəzəri-estetik konsepsiyaları və metodologiyasına söykənilərək işıqlandırılması. Ədəbiyyatşünas Berna Moranın "Ədəbiyyat nəzəriyyələri və tənqid" və "Türk romanına tənqidi baxış" adlı üçcildlik tədqiqat əsəri. Professor Gürsel Aytacın "Ümumi ədəbiyyatşünaslıq" və "Müqayisəli ədəbiyyatşünaslıq" kitablarının məziyyətləri. Ədəbiyyatşünaslar Rauf Mutluayın və Kamal Qəriboğlunun "Ədəbiyyat bilgiləri" kitabları. Türk ədəbiyyatşünaslığında janrologiyanın formalaşması. Emin Özdəmirin "Ədəbi janrlar" kitabı. Əsərdə türk ədəbiyyatının janr inkişafı, janrların tarixi və tipologi-

yası, ənənəvilik və novatorluq məsələlərinin şərhi. Janrların formalaşması və inkişafında tarixilik prinsipi, təkamül nəzəriyyəsi, türk ədəbi-bədii janrlarının növ, şəkil, forma prinsipinə görə təsnifatı məsələlərinin qoyuluşu.

10.İlkin ədəbiyyatşünaslıq əsərləri - Şüəra Təzkirələri. Elmə məlum ilk Osmanlı türk təzkirəsi: Ədirnəli Səhi Bəyin “Həşt Behişt” əsəri. Kastamonulu Lətifinin, Aşiq Çələbinin, Qınalızadə Həsən Çələbinin, Bağdadlı Əhdinin təzkirələri.

11.Dil-ədəbiyyat və incəsənət jurnalları və ədəbiyyatın nəzəri-estetik məsələləri. Ayrı-ayrı ədəbi-bədii janrlara dair xüsusi buraxılışlar (“özəl saylar”).

12.Ədəbi əsərdə bədii təsvir və ifadə vasitələri. Təhkiyə, təsvir, tərənnüm. Obraz və obrazlılıq. Bədii priyomlar. Süjet və kompzisiya məsələləri. Tip və xarakter.

**Mövzu planı**

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Türk ədəbiyyatı tarixləri və nəzəri-estetik məsələlər | 2 | 2 | |
| 2 | Ədəbiyyat nəzəriyyəsində tədqiqat metodları | 4 | 2 | 2 |
| 3 | Türk ədəbiyyatında ədəbi qrup və məktəblər | 4 | 2 | 2 |
| 4 | Müasir türk ədəbiyyatının nəzəri məsələləri | 2 | 2 | |
| 5 | Klassik türk “Divan” şeir toplusunun tərtibi qaydası | 2 | 2 | |
| 6 | Ədəbiyyatda məzmun və forma məsələsi | 2 | 2 | |
| 7 | Ədəbi-bədii növ və janrlar | 4 | 2 | 2 |
| 8 | Türk ədəbiyyatında metod və cərəyanlar | | | |
| 9 | Türk ədəbiyyatı nəzəriyyəsinin mənbələri | 4 | 4 | |
| 10 | İlkin ədəbiyyatşünaslıq əsərləri - Şüəra təzkirələri | 2 | 2 | |
| 11 | Dil-ədəbiyyat  jurnallarıda nəzəri-estetik məsələlər | 2 | 2 | |
| 12 | Ədəbi əsərdə bədii təsvir və ifadə vasitələri | 4 | 2 | 2 |
| | Cəmi | 32 | 24 | 8 |

**Ədəbiyyat:**


1. Aydın Abi Aydın (Abıyev A.). Türkiyə ədəbiyyatı tarixi. I cild. Bakı, Tural NPM, 2005
2. Rəsulov Ə.A. Türk sənədli-bədii nəsri. Bakı: “Elm”, Nurlan NPM, 2004

3. Aytaç Gürsel. Genel Edebiyat Bilimi. İstanbul: Papirüs Yayınları, 1999
4. Demiray Kemal. Edebiyatta Türler. İstanbul: İnkılap ve Aka Yayın., I971
5. Gariboğlu Kemal. Edebiyat Bilgileri. Ankara: Gariboğlu Yayınları, 1969
6. Karaalioğlu Seyit Kemal. Kompozisyon Konuşmak ve Yazmak Sanatı. İstanbul: İnkılap ve Aka Yayınları, 1970
7. Kudret Cevdet. Türk Edebiyatında Hikaye ve Roman: 2 ciltte. İstanbul: Varlık Yayınları, 1977
8. Moran Berna. Edebiyat Kuramları ve Eleştiri. İstanbul: İstanbul Üniversitesi Yayınları, 1972
9. Mutluay Rauf. 100 Soruda Edebiyat Bilgileri. İstanbul: Gerçek Yn., 1977
10. Özdemir Emin. Yazınsal Türler. Ankara: Bilgi Yayınevi, 1994
11. Айзенштейн Н.А. Из истории турецкого реализма. Заметки о турецкой прозе (70-е годы X1X в. - 30-е годы XX в.). М.: Наука, 1968
12. Алькаева Л.О. Из истории турецкого романа. 20-50-ые годы XX в. М.: Наука, 1975
13. Маштакова Е.И. Турецкая литература конца XVII – начала XIX в. М.: Наука, 1984
14. Маштакова Е.И. Из истории сатиры и юмора в турецкой литературе (XIV -XVII вв.). М.: Наука, 1972
15. Теория жанров литератур Востока. М.: Наука, 1985

## TÜRK ƏDƏBİYYATŞÜNASLIĞININ TARİXİ VƏ METODOLOGİYASI

Müasir ədəbiyyatşünaslıq elminin ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid kimi söz sənətinin genişmiqyaslı və mürəkkəb məsələlərinin öyrənilməsi, təhlili və tədqiqi işində ixtisaslaşmış və hər birinin öz tədqiqat predmeti olan üç fərqli sahəsi Türkiyədə əvvəllər, əsasən, "Türk ədəbiyyatı", "Türk ədəbiyyatı tarixi" adını daşıyan kitablarda toplu halda nəzərdən keçirilirdi. XIX əsrin sonlarından bu günə qədər Türkiyədə nəşr edilmiş otuzdan artıq "Türk ədəbiyyatı tarixi"nin (bu adda ilk əsər Əbdülhəlim Memduhun (1866-1905) 1888-ci ildə nəşr edilmiş "Tarixi-ədəbiyyati-Osmaniyyə"sidir) böyük əksəriyyətində türk ədəbiyyatının təşəkkül və inkişaf mərhələləri, ədəbi-bədii növ və janrları, nəzəri-estetik məsələləri, müxtəlif dövrlərdə yaşayıb-yaratmış şair, nasir və dramaturqların həyat və yaradıcılığı toplu halda tədqiq, təhlil və tənqid edilmişdir.

XX əsrin 40-cı illərindən etibarən türk ədəbiyyatının nəzəri-estetik məsələləri həm də "Ədəbiyyat bilgiləri", "Ədəbi türlər", "Kompozisyon" kitablarında nəzərdən keçirilməyə başlanmışdır.

İlk peşəkar ədəbi tənqidçisini hələ XIX əsrin sonunda yetişdirən türk ədəbiyyatında ədəbi-tənqidi fikrin daşıyıcıları XX əsrin ortalarına qədər əsasən yaradıcı ziyalıların özləri – şair və yazıçılar olmuş, müxtəlif ədəbi qruplaşmalar da məhz bu zəmində meydana çıxmışdır. Keçən yüzilin 40-50-ci illərindən etibarən Türkiyədə ədəbi-tənqidi fikir müasir dünya ədəbiyyatşünaslığının tələbləri səviyyəsinə yüksəlməyə başlamış, 60-70-ci illərə qədər daha çox esseistika şəklində mövcud olmuş, 80-90-cı illərdən başlayaraq həm ədəbiyyatın ümumi məsələləri, həm də ayrı-ayrı müəlliflərin yaradıcılığına həsr olunmuş əsərlər şəklində (monoqrafiya, ədəbi-tənqidi məqalələr toplusu, ayrı-ayrı ədəbi növ və janrlarda yazılan əsərlərin elmi-tənqidi təhlili və s.) meydana çıxmışdır.

Müasir dünya ədəbiyyatşünaslığında ədəbiyyatın, o cümlədən ədəbi-bədii janrların nəzəri-estetik məsələlərinin tədqiqi, ədəbiyyat tarixlərinin yazılışı, sənətkar və onun əsərinin təhlili üsullarına dair çox sayda cərəyan, məktəb, metod və metodoloji konsepsiyalar mövcuddur. Bu konsepsiyalarla əlaqədar elmi-nəzəri kitabların

bir çoxu tərcümə edilərək, Türkiyədə nəşr olunmuşdur. Həmin konsepsiyaların bir çoxu (sosial-tarixi, fəlsəfi, estetik, pozitivist, genetik, formalist, psixoloji, plüralist) müasir türk ədəbiyyatşünaslıq əsərlərinin nəzəri-metodoloji əsasını təşkil edir.

Bu proqram magistr tələbələrə yığcam şəkildə müasir Türkiyənin humanitar təfəkkürünün bir qolu olan ədəbiyyatşünaslıq elminin keçdiyi tarixi inkişaf yolunu göstərmək, ədəbiyyatşünasığın ayrı-ayrı sahələri - ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid üzrə tanınmış alimləri və onların ən dəyərli və məşhur əsərləri haqqında məlumatlandırmaq məqsədilə tərtib edilmişdir.

Proqramın həcmi 36 saatdır, o cümlədən 26 saat mühazirə, 10 saat seminar məşğələləri üçün nəzərdə tutulmuşdur.

1.Türk ədəbiyyatşünaslarının nəzəri-metodoloji konsepsiyaları.

2.Sosial-tarixi prinsip. Ədəbiyyatda məzmun və forma, ənənə və novator-luq, ədəbi prosesin dinamikası və s. problemlərin cəmiyyətin tarixi inkişafı ilə əlaqəsi. Ədəbi prosesin izahında ədəbiyyatın sosial funksiyası əsas amil kimi. Bu metodun Türkiyədəki təmsilçiləri olan türk ədəbiyyatı tarixçiləri haqqında məlu-mat. Mehmet Fuat Köprülü (1890-1966) və onun “Türk ədəbiyyatı tarixi”, “Türk ədəbiyyatında ilk mütesevvüflər” əsərləri. İsmayıl Hikmət Ərtaylanın (1899-1967) XX əsrin 20-ci illərində Bakıda, Universitetdə işlədiyi illərdə türk ədəbiyyatının, o cümlədən Azərbaycan ədəbiyyatının təşəkkülü və təkamülü, şair və yazıçıların ədəbi fəaliyyəti və söz sənətinin müxtəlif növ və janrlarının inkişafındakı xidmətlərinə dair eyni metodologiya ilə meydana gətirdiyi ədəbiyyat tarixləri. İsmayıl Həbib Sevükün (1892-1954) “Türk təcəddüd ədəbiyyatı tarixi” və ədəbiyyat müəllimi işlədiyi 30-40-cı illərdə filoloji təhsil alan tələbələr üçün qələmə aldığı ədəbiyyatşünaslığın müxtəlif məsələlərinə, xüsusilə ədəbiyyat nəzəriyyəsinə dair kitabları. Ədəbiyyat tarixini ictimai elmlərin bir qolu olaraq görən, ədəbi əsərlərin tarixi məkan və zaman hüdudları çərçivəsində, səbəb-nəticə əlaqələri nəzərə alınaraq tədqiq edilməsinin vacibliyini müdafiə edən tanınmış türk ədəbiyyatşünasları Agah Sirri Ləvənd (1894-1978) və Vəsfi Mahir Qocatürk (1907-1961). Ədəbiyyatşünas Əhməd Kabaklı (1924-2001) və onun üçcildlik “Türk ədəbiyyatı” kitabı. Kənan Akyüzün “Modern türk ədəbiyyatının ana cizgiləri

(1860-1923)" adlı əvvəlcə fransızca, sonra isə türkcə qələmə aldığı kitabı. Sırf elmi-nəzəri planda yazılmış bu əsərin ən mühüm məziyyətləri: müvafiq dönəmin türk ədəbiyyatının tarixi ənənəvi dövrlərə bölünərək ("Tənzimat", "Sərvəti-fünun" və bu ədəbi məktəblərdən kənarda müstəqil fəaliyyət göstərənlər, "Fəcri-ati", "Milli ədəbiyyat") təhlil edilməsi, hər bir mərhələnin ədəbi-bədii növ və janrlar çərçivəsində (şeir, teatr, roman və hekayə, satira və həcv, ədəbi tənqid, ədəbiyyat tarixi, publisistika) və bu janrlarda qiymətli əsərlər verən müəlliflərin ədəbi fəaliyyətinin işıqlandırılması şəklində qələmə alınmış olması. Yeni və ən yeni türk ədəbiyyatı tarixinin tanınmış tədqiqatçılarından biri Şükran Kurdakul (1927-2004) və onun ikicildlik "Çağdaş türk ədəbiyyatı" kitabının məziyyətləri: Müasir türk poeziyası və nəsrinin "xələf-sələf" münasibətlərinin, ənənə və novatorluq əlaqələrinin, milli ədəbi qaynaqlarla bağlılığının, ədəbi-bədii janrların sənətkarlıq xüsusiyyətlərinin şair və yazıçıların əsərlərindən verilən çoxsaylı örnəklərlə işıqlandırılması. Təhlilə cəlb edilən əsərlərin ölkənin ictimai-bədii fikrindəki siqləti, ədəbi prosesin inki-şafındakı rolunun elmi dəqiqliklə və yüksək nəzəri səviyyədə müəyyənləşdirilməsi, obyektiv elmi meyarlarla qiymətləndirilməsi. Ədəbiyyatşünas Mustafa Nihad Özönün (1896-1980) "Mətnlərlə müasir türk ədəbiyyatı tarixi" kitabı. Təxminən yüzillik (1839-1930) dövrün türk ədəbiyyatı tarixinin tədqiq-təhlili. Ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığının janrların təsnifatı prinsipi əsasında və müxtəlif janrlı mətnlərdən nümunələr verilməklə işıqlandırılması. Hər birinin bu və ya digər ədəbi-bədii janrın təşəkkülü və formalaşmasındakı xidmətinə görə qiymətləndirilməsi. Görkəmli türk ədəbiyyatşünasları Nihad Sami Banarlının (1907-1974) ikicildlik fundamental "Rəsmli türk ədəbiyyatı tarixi" və Seyid Kamal Qaraəlioğlunun (1925) "Rəsmli-motivli türk ədəbiyyatı tarixi" kitabları. Müəlliflərin qədim, orta əsrlər, yeni və ən yeni dövrün türk ədəbiyyatı tarixini ümumtürk ədəbi-bədii fonunda, iri tarixi mərhələlərə və əsrlərə bölərək, hər dövrü özünün janr "repertuarı" çərçivəsində təhlil etmələri. Ədəbiyyatşünas Rauf Mutluayın (1925-1991) ədəbi fəaliyyəti. Tədqiqatçını həmkarlarından fərqləndirən ən mühüm cəhətlər: onun türk ədəbiyyatı tarixi ilə ədəbiyyatın nəzəri-estetik məsələlərini bir-birindən ayıraraq tədqiq etməsi. Müəllifin türk

ədəbiyyatı tarixinin ümumi məsələlərinə, XIX əsr türk ədəbiyyatı tarixinə, çağdaş türk ədəbiyyatına və sırf ədəbiyyatın nəzəri problemlərinə, ədəbi-bədii janrların meydana gəlməsi və inkişafı yollarına həsr edilən beş kitabı haqqında məlumat.

3.Psixoloji-estetik metod. Türkiyə ədəbiyyatşünaslığında ədəbi əsərləri daha çox estetik gözəllik və sənət dəyəri yönündən tədqiq edən konsepsiya və sənətkarların ruhi vəziyyəti ilə əsərləri arasında əlaqəni əsas kimi götürən psixoloji metodun nümayəndəsi kimi görkəmli ədəbiyyatşünas Əli Nihad Tərlanın (1898-1978) mətn incələmələri. Türkiyədə estetik-psixoloji nəzəriyyənin tərəfdarlarından biri tanınmış ədəbiyyat tarixçi və tənqidçisi Əhməd Həmdi Tanpınar (1901-1962) və onun "XIX əsr türk ədəbiyyatı tarixi" adlı fundamental kitabı.

3.1. Ədəbiyyatşünaslığın digər tədqiqat metodları haqqında ümumi məlumat. Fəlsəfi-pazitivist metod. Plüralist metod. Formalist metod. Genetik metod.

4.Türkiyə ədəbiyyatşünaslığında türk ədəbiyyatının tarixi-xronoloji inkişaf mərhələlərinin dövrləşdirilməsinin nəzəri-metodoloji aspektləri.

4.1.İslamaqədərki türk ədəbiyyatı və epos mədəniyyəti. Şifahi türk ədəbiyyatı. Qədim və Erkən Orta əsrlər yazılı türk ədəbiyyatı (VII-XII əsrlər);

4.2.İslam sivilizasiyasında türk ədəbiyyatı. Klassik türk (Divan) ədəbiyyatı (XIII – XIX əsrin I yarısı); Təkkə (Təsəvvüf) ədəbiyyatı. Şifahi xalq ədəbiyyatı. Aşıq ədəbiyyatı.

4.3.Qərb sivilizasiyasında türk ədəbiyyatı (XIX əsrin II yarısı – XX əsrin I rübü). XIX əsrdə ədəbi qruplar: "Tənzimat" ədəbiyatı. "Sərvəti-fünun" ədəbiyatı.

4.4.XX əsrin I rübünün ədəbiyatı və ədəbi qruplar: "Fəcri-ati" ədəbiyatı. "Milli ədəbiyyat". Hecanın beş şairi.

4.5.Cümhuriyyət dönəmi türk ədəbiyyatı və ədəbi qruplar. Yeddi məşəlçilər. Birinci yeni, yaxud "Qərib" ədəbi qrupu. İkinci yeni, yaxud "Maviçilər" qrupu. Toplumcu gerçəkçilər (sosial realistlər).

5.Türk ədəbiyyatının nəzəri məsələləri.

5.1.Şifahi türk ədəbiyyatının növ və janrları. Anonim (müəllifsiz) janrlar: dastan, mani (bayatı), türkü, fıkra (lətifə), atasözü, bilməcə (tapmaca), ninni (lay-lay), alqış, qarğış, təkərləmə, əfsanə masal (nağıl). Dini (sufi) məzmunlu janrları:

ilahi, nəfəs, qələndəri, nutuk, hikmət, devriyə. Aşıq ədəbiyyatının forma və şəkilləri: qoşma və formaları (gözəlləmə, daşlama, qoçaqlama), səmai, varsağı (gəraylı). Şifahi xalq yaradıcılığına aid dram tamaşaları və əyləncəli oyun janrları: qaragöz, orta oyunu, məddah.

5.2.Klassik türk "Divan" şer toplusunun tərtibi qaydası: qəsidələr ( tovhid, münacat, nət, mədhiyyə, mərsiyyə, fəxriyyə və s.), qəzəllər, bəndli şerlər, qitələr, rübailər, maddeyi-tarixlər, tək-tək beytlər və misralar. Dövrün ədəbi-bədii janrları. Nəsr və nəzm anlayışları. Sadə nəsr, orta nəsr, süslü (bədii) nəsr. Nəsr forma və şəkilləri. Poetik janrlar və nəzm şəkilləri: qəzəl, qəsidə, rübai, tuyuğ, məsnəvi, tərkibi-bənd, tərci-i bənd, şərqi, mürəbbe, müəmma və digər bəndli şeir formaları.

5.3.Klassik türk ədəbiyyatının ən görkəmli tədqiqatçıları olan Türkiyə ədəbiyyatşünas, mətnşünas, mənbəşünas, tərcüməçi və naşirləri: Agah Sirri Ləvənd, Mehmet Fuad Köprülü, Əbdülbaqi Gölpınarlı, Əbdülqadir Karahan, Şükrü Dilçin, Rəşid Rəhməti Arat, Orhan Şaiq Gökyay, Osman Fikri Sertkaya, Mehmet Ali Tanyeri, K.Faruk Timurtaş və b.

5.4.Vəznlər. Əruz vəzni və bəhrləri. Heca vəzni və qafiyə çeşidləri. Sərbəst vəzn.

6.Türk ədəbiyyatında ədəbi metod, üslub və fəlsəfi-ideoloji cərəyanlar. Klassisizm. Romantizm. Realizm. Naturalizm. Simvolizm. Maarifçilik. Qərbçilik. Ümmətçilik (İslamçılıq). Osmanlıçılıq. Türkçülük. Toplumçuluq. Modernizm. Postmodernizm.

6.1.Türk ədəbiyyatı nəzəriyyələri. Keçən əsrin 30-40-cı illərində metodoloji baxımdan o dövrün Avropa ədəbiyyatşünaslığı ilə səsləşən ilk ədəbiyyat nəzəriyyələri meydana çıxması: A.S.Ləvəndin "Ədəbiyyat dərsləri", İ.H.Sevükün və N.S.Banarlının "Ədəbiyyat bilgiləri" kitabları və s. Çağdaş türk nəsrinin nəzəri problemlərinin XX əsrin 70-ci illərindən etibarən yeni metodlarla daha dərindən tədqiq olunması, Qərb ədəbiyyatşünaslığının modern nəzəri-estetik konsepsiyaları və metodologiyasına söykənilərək işıqlandırılması. Türk ədəbiyyatşünas-alimi, ingilis dili və ədəbiyyatı mütəxəssisi Berna Moranın (1921-1993) "Ədəbiyyat nəzəriyyələri və tənqid" və "Türk romanına tənqidi baxış" adlı üçcildlik tədqiqat əsəri.

Ankara Universitetinin professoru Gürsel Aytacın (1940) elmi fəaliyyəti. Onun "Ümumi ədəbiyyatşünaslıq" monoqrafiyasının məziyyətləri: ədəbi əsərlə obyektiv gerçəklik, bədii təxəyyül ilə real fakt və sənəd, forma ilə məzmun arasındakı əlaqələr kontekstində, sənətkarın yaradıcılıq prosesində, həyat həqiqətlərinin inikası planında təhlili. Ədəbiyyatşünas Rauf Mutluayın və Kamal Qəriboğlunun "Ədəbiyyat bilgiləri" kitabılarında türk ədəbiyyatının nəzəri məsələləri, ədəbi cərəyan, məktəb və metodlar, onların Qərb ədəbiyyatı ilə müqayisəli təhlili, türk şifahi və yazılı ədəbiyyatının janr və formaları.

7.Türk ədəbiyyatşünaslığında janrologiyanın formalaşması. Emin Özdəmirin "Ədəbi janrlar" kitabı. Əsərdə türk ədəbiyyatının janr inkişafı, janrların tarixi və tipologiyası, ənənəvilik və novatorluq məsələlərinin şərhi. Janrların formalaşması və inkişafında tarixilik prinsipi, təka-mül nəzəriyyəsi, türk ədəbi-bədii janrlarının növ, şəkil, forma prinsipinə görə təsni-fatı məsələlərinin qoyuluşu.

7.1.Ədəbi növ və janrların digər kitablarda təqdimatı. "Kompozisyon" kitabla-rı: Sabahat Əmirin "Kompozisyon yazma sənəti", Fevziyə A.Tanselin "Gözəl və düzgün yazma üsulları", S.K.Qaraəlioğlunun "Sözlü-yazılı kompozisya – nitq və yazı sənəti" kitabı.

8.Türkiyə ədəbiyyatşünaslarının türk ədəbiyyatının qaynaqları olaraq tədqiqata və təhlilə cəlb etdiyi mənbələr:

8.1.İslamaqədərki türk yazılı abidələri: Göytürk və ya Orxon-Yenisey abidələ-ri; Ongin abidəsi (VII əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəli); Tonyukuk abidəsi (VIII əsrin ilk onilliyinin sonu – ikinci onilliyin əvvəlləri); (Kül tiqin) abidəsi (732-ci il); Bilgə xaqan abidəsi (734-cü il).

8.2.Maniçi və Buddist dini-mistik mənbələr. Qədim Şərq (İran, sanskrit, Çin, Tibet) dillərindən tərcümə-təbdil edilmiş əsərlər. VIII əsrə aid "Xuastuanift" (Maniçilərin tövbə duası) əsəri. X əsrdə Çin dilindən tərcümə-təbdil edilən "Altun yaruk" (Qızıl işıq) əsəri.

8.3.Erkən Orta əsrlərə aid ümumtürk ədəbi mənbələri. Yusif Xas Xacib (Yusuf Balasaqunlu) və onun "Kutadqu bilik" epik-didaktik poeması. Mahmud Kaşqarlı və onun ərəb dilində tərtib etdiyi "Divanü-luğat-it türk" ensilkopedik lüğəti.

Əhməd Yəsəvi və onun "Divani-hikmət" əsəri. Ədib Əhməd Yüknəki və onun "Atabət-ül həqayiq" əsəri.

8.4.İslami elmlər. Fiqhlər. Təfsirlər. Hədislər. Mənqəbələr. Qazavatnamələr. Övliya təzkirələri. Həmzənamələr. Sufi (təsəvvüf) və agioqrafik əsərlər. Ensiklopedik kitab və lüğətlər. Bioqrafik əsərlər. Ərəb və fars ədəbiyyatı. Şərq mifologiyası.

8.5.Vaqeənamələr və tarixlər. Dərviş Əhməd Aşıqinin "Aşiqpaşazadə tarixi". Mustafa Naimanın "Tarix"i. İbrahim Peçevinin "Tarix"i. Anonim "Tevarixi-Ali-Osman"lar.

8.6.Səyahətnamələr və coğrafi əsərlər. Seydi Əli Rəisin "Mirat-ül memalik" ("Ölkələrin aynası") əsəri. Övliya Çələbinin on cildlik "Səyahətnamə"si.

8.7.Səfarətnamələr. XVII əsrin sonu –XVIII əsrlərdə yazılmış səfarətnamələr. İyirmi Səkkiz Mehmet Çələbinin "Fransa səfarətnaməsi" (XVIII əsr). Əhməd Resminin "Vyana səfarətnaməsi". Şəhdi Osmanın "Rusya səfarətnaməsi".

8.8.Risalələr. Risalələrin bədii publisistliyi və sənədli-bədii mənbələr olaraq dəyərləri. Kastamonulu Lətifinin "Risaleyi-evsafı-İstanbul" əsəri. Koçi Bəyin məktub-risalələri. Katib Çələbinin elmi-publisistik risalələri: "Fəzləkə", "Cihannüma", "Düsturul-əməl" və s.; Resmi Əhməd Əfəndinin "Xülasatül-etibar" əsəri.

8.9.İlkin ədəbiyyatşünaslıq əsərləri – türk ədəbiyyatı tarixləri və nəzəri biliklər toplusu hesab oluna biləcək Şüəra Təzkirələri. Elmə məlum ilk Osmanlı türk təzkirəsi: Ədirnəli Səhi Bəyin "Həşt Behişt" əsəri. Kastamonulu Lətifinin, Aşiq Çələbinin, Qınalızadə Həsən Çələbinin, Bağdadlı Əhdinin və b. təzkirələri.

9.Dil-ədəbiyyat və incəsənət jurnalları və ədəbiyyatşünaslıq məsələləri: "Türk dili və ədəbiyyatı", "Tərcümə", "İletişim", "Milliyət sənət", "Kıyı", "Türk dünyası araşdırmaları" və s. kimi jurnalların türk ədəbiyyatının təbliğində, yaradıcı ziyalıların və ictimaiyyətin diqqətinin ədəbi növ və janrlara cəlb edilməsində rolu. Bu jurnalların nəsr və poeziya janrlarının nəzəri-estetik məsələlərinə dair fikir və mülahizələri və onlara aid nümunələrdən seçmələri (antalogiyaları), müxtəlif janrlara həsr edilmiş xüsusi buraxılışları ("özəl saylar").

10.Müasir türk ədəbiyyatşünaslığında ədəbi tənqid. İlk peşəkar türk ədəbi tənqidçi-filosofu Bəşir Fuad. XIX əsrin sonu - XX əsrin 20-30-cu illərində türk ədəbiyyatında "köhnə" – "yeni", əruz vəzni – heca vəzni və s. məsələlər ətrafında ədəbi tənqidçilərin mübahisələri. "Bütləri yıxırıq" kampaniyası və buna qarşı dirəniş. Essenin ədəbi tənqid janrı kimi formalaşması. Cümhuriyyət dönəmi türk ədəbi tənqidçiləri: Nurullah Atac, Suud Kamal Yetkin, Sabahəddin Eyyüboğlu, Tahir Alanqu, Cevdet Qüdrət, Vədat Günyol, Sevda Şener, Mətin And, Konur Ərtop, Asim Bezirci, Hilmi Yavuz, Naci Çelik, Fəthi Naci, Gürsel Aytac, Feridun Andac, Adnan Binyazar, Nedim Gürsel, Mehmet Fuad, Nemi Uyqur, Selahəddin Hilav, Müzəffər Ərdost, Mehmet H.Doğan və b. Ədəbi tənqid və resenziyaçılıq. Ədəbiyyatşünaslıqda obyektiv elmi tənqid. Ədəbiyyatşünas Hüseyn Cöntürkün ikicildlik "Çağın eleştirisi" kitabı.

**Mövzu planı**

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Türk ədəbiyyatşünaslarının nəzəri-metodoloji konsepsiyaları | 4 | 2 | 2 |
| 2 | Sosial-tarixi prinsip | 2 | 2 | |
| 3 | Psixoloji-estetik metod | 2 | 2 | |
| 4 | Türkiyə ədəbiyyatşünaslığında ədəbiyyatın tarixi-xronoloji dövrləşdirilməsi | 4 | 2 | 2 |
| 5 | Türk ədəbiyyatının nəzəri məsələləri | 4 | 2 | 2 |
| 6 | Türk ədəbiyyatında ədəbi metod, üslub və fəlsəfi-ideoloji cərəyanlar | 4 | 4 | |
| 7 | Türk ədəbiyyatşünaslığında janrologiyanın formalaşması | 4 | 4 | |
| 8 | Türk ədəbiyyatşünaslığının qaynaqları | 2 | 2 | |
| 9 | Dil-ədəbiyyat jurnallarında ədəbiyyatşünaslıq məsələləri | 2 | 2 | |
| 10 | Müasir türk ədəbiyyatşünaslığında ədəbi tənqid | 4 | 2 | 2 |
| | Cəmi | 32 | 24 | 8 |

**Ədəbiyyat:**


1. Aydın Abi Aydın (Abıyev A.). Türkiyə ədəbiyyatı tarixi. I cild. Bakı, Tural NPM, 2005
2. Əliyeva J.F. Çağdaş türk şerinin poetikası. Bakı: Elm, 2000

3. Osmanova B.R. İsmayıl Hikmət Azərbaycan klassik şairləri haqqında // Şərq filologiyası. Bakı, 1999, s.15-26
4. Rəsulov Ə.A. Türk sənədli-bədii nəsri. Bakı: "Elm", Nurlan NPM, 2004
5. Akyüz Kenan. Modern Türk Edebiyatının Ana Çizgileri. Ankara: Ankara Üniversitesi Yayınları, 1979
6. Aytaç Gürsel. Genel Edebiyat Bilimi. İstanbul: Papirüs Yayınları, 1999
7. Aytaç Gürsel. Karşılaştırmalı Edebiyat Bilimi. İstanbul: Papirüs Yn, 1997
8. Banarlı Nihat Sami. Resimli Türk Edebiyatı Tarihi: 2 ciltte, İstanbul: Milli Eğitim Basımevi, 1987
9. Kabaklı Ahmet. Türk Edebiyatı: 3 ciltte. İstanbul: Otağ Matbaacılık, 1978
10. Karaalioğlu Seyit Kemal. Türk Edebiyatı Tarihi: 2 ciltte. İstanbul: İnkılap ve Aka Yayınları, 1973
11. Köprülü Mehmet Fuat. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken, 1986
12. Kurdakul Şükran. Çağdaş Türk Edebiyatı.Cumhuriyet Dönemi [1923-1950]. İstanbul: Broy Yayınları, 1987
13. Levend Agah Sırrı. Türk Edebiyatı Tarihi. Ankara: Türk Tarih Kurumu Yayınları, 1973
14. Moran Berna. Edebiyat Kuramları ve Eleştiri. İstanbul: İÜ Yn., 1972
15. Moran Berna. Türk Romanına Eleştirel Bir Bakış. 3 ciltte. İstanbul: İleti-şim Yayınları, 2001
16. Mutluay Rauf. 100 Soruda Edebiyat Bilgileri. İstanbul: Gerçek Yn., 1977
17. Özdemir Emin. Yazınsal Türler. Ankara: Bilgi Yayınevi, 1994
18. Robert P.Finn. Türk Romanı (1872-1900) / Türkçesi: Tomris Uyar. Ankara: Bilgi Yayınevi, 1984
19. Tanpınar Ahmet Hamdi. I9-cu Asır Türk Edebiyatı Tarihi. İstanbul, 1976
20. Айзенштейн Н.А. Из истории турецкого реализма. Заметки о турецкой прозе (70-е годы Х1Х в. - 30-е годы ХХ в.). М.: Наука, 1968
21. Алькаева Л.О. Из истории турецкого романа. 20-50-ые годы ХХ в. М.: Наука, 1975
22. Алькаева Л.О. Очерки по истории турецкой литературы (1908-1939гг.). М.: АН СССР, 1959
23. Ахмедов Р.С. Литературные процессы в новой турецкой литературе. Баку: Нафта-Пресс, 2002
24. Бабаев А.А. Очерки современной турецкой литературы. М.: Восточная литература, 1959
25. Бабаев Акшин А. Социальные мотивы в современной турецкой драматургии. Баку: Элм, 1982
26. Гарбузова В. С. Поэты средневековой Турции. Л.: Изд.-во ЛГУ, 1969
27. Маштакова Е.И. Турецкая литература конца XVII – начала XIX в. М.: Наука, 1984
28. Маштакова Е.И. Из истории сатиры и юмора в турецкой литературе (XIV -XVII вв.). М.: Наука, 1972
29. Маштакова Е.И. Проблемы отечественного романа в критике литературоведении Турции / Литературная критика стран зарубежного Востока и ее роль в развитиии общественной и эстетической мысли. М., 1988

30. Меликов Т.Д. Национальная культурная традиция в зеркале литературной критики Турции / Литературная критика стран зарубежного Востока и ее роль в развитии общественной и эстетической мысли. М., 1988
31. Меликов Т.Д.  Турецкая поэзия 60-х-начала 70-х годов. М.: Наука, 1980
32. Теория жанров литератур Востока. М.: Наука, 1985

## TÜRK ƏDƏBİYYATŞÜNASLIĞININ MÜASİR PROBLEMLƏRİ

Türk ədəbiyyatşünaslığının müasir problemlərini bir-neçə yerə qrupda toplamaq mümkündür. İlk növbədə, bunu qeyd etmək lazımdır ki, çağdaş Türkiyədə ədəbiyyatın nəzəri-estetik məsələlərinə, ədəbi növ və janrların təsnifatına münasibətdə fərqli baxışlar sistemi, bəzi mübahisəli məqamlar özünü göstərir. Məlumdur ki, ədəbiyyatın növ və janrlarının klassik təsnifatına görə üç ədəbi növ mövcuddur: epik, lirik və dramatik. Başlanğıcını Aristotelin "Poetika"sından alan bu ənənəvi bölgünün prinsipinə görə ədəbi növ janrdan daha geniş anlayışdır və hər bir növ məzmun və forma ümumiliyi nöqteyi-nəzərindən bir neçə janrı birləşdirir. Hər bir janr öz növbəsində forma rəngarəngliyinə sahibdir. Türk ədəbiyyatşünaslığında ədəbi növ və janrların bu klassik iyerarxiyasında sistemsizlik özünü göstərir, növ, janr, forma, şəkil məsələləri bəzən qarışdırılır ki, bu da düzgün elmi-nəzəri nəticələrə gəlməyə imkan vermir.

Digər mühüm problem türk ədəbiyyatşünaslığında klassik ədəbi irsə – Divan ədəbiyyatına olan ziddiyyətli münasibətdir ki, keçiləcək mövzular içərisində bu məsələ ilə əlaqədar bir-neçə mühazirə nəzərdə tutulur.

Başqa bir problem müasir ədəbiyyatşünaslıq elminin ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid kimi söz sənətinin genişmiqyaslı və mürəkkəb məsələlərinin öyrənilməsi, təhlili və tədqiqi işində ixtisaslaşmış və hər birinin öz tədqiqat predmeti olan üç fərqli sahəsinin Türkiyədə çox zaman "ədəbiyyat tarixi" adını daşıyan kitablarda toplu halda nəzərdən keçirilməsidir ki, proqram mövzuları içərisində bu məsələyə də xüsusi diqqət yetirilmişdir.

Ədəbiyyatşünaslıq problemi kimi öyrənilməsi vacib olan məsələlərdən biri də ədbi tənqidlə esseistika arasındakı münasibətlərin aydınlaşdırılmasıdır ki, Türkiyədə bəzən ədəbi tənqidin janr formalarından biri olan esse ("deneme") ilə müstəqil ədəbi yaradıcılıq növü esseistika qarışdırılır.

Problemlərdən biri də ədəbiyyatşünaslıq terminlərində özünü göstərən sinonimlik və dubletlik, bu istilahların unifikasiyası məsələsidir ki, bu mövzuya da proqramda yer verilmişdir.

Proqramın azərbaycanlı tələbələrə ünvanlandığını nəzərə alaraq Türkiyədə yaşamış, lakin ədəbi-publisistik fəaliyyətləri türk ədəbiyyatşünaslarının diqqətindən kənarda qalmış Azərbaycan mühacir ədəbiyyatı nümayəndələrinin ədəbi-estetik görüşləri də proqram mövzuları sırasına daxil edilmişdir.

Nəhayət, türk bədii publisistikası qədim tarixə və zəngin mədəniyyətə malik doğma Azərbaycanımızı türk oxucusuna tanıtmaqda, respublikamız haqqında fəal ictimai rəy yaratmaqda, obyektiv fikir formalaşdırmaqda mühüm rol oynamışdır. Türk ədəbiyyatşünaslarının tədqiqat obyektinə çevirmədikləri bu mövzu da proqramda müasir ədəbiyyatşünaslığın problemi kimi öz əksini tapmışdır.

Əlbəttə, magistr tələbələr türk ədəbiyyatşünaslığının müasir problemləri haqqında onlara bakalavr pilləsində və magistraturanın müvafiq fənn proqramları - Türkiyə ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbiyyatşünaslığın tarixi və metodologiyası üzrə oxunan mühazirələrdə, eləcə də xüsusi kurslarda müəyyən biliklər əldə edirlər. Bu proqramın məqsədi həmin fənnlərin qarşıya qoyduğu vəzifələrdən fərqlidir və müasir Türkiyənin ədəbiyyatşünaslığında yuxarıda ümumi şəkildə qeyd edilən, eləcə də hələ ki problem olaraq qalan, çoxsaylı ədəbi polemika və diskussiyalara rəvac verən, tədqiqatçıların müxtəlif qruplara bölünməsinə yol açan aktual ədəbiyyat problemləri barəsində tələbələri məlumatlandırmaq və türkologiyada öz həllini və tədqiqatçılarını gözləyən məsələlərə diqqət çəkmək, onları bu problemlərin elmi araşdırılmasına və perspektiv həlli yollarına istiqamətləndirməkdən ibarətdir.

Proqramın həcmi 32 saatdır, o cümlədən 24 saat mühazirə, 8 saat seminar məşğələləri üçün nəzərdə tutulmuşdur.

1. Müasir türk ədəbiyyatşünaslığında anlayışlar və terminologiya problemi: Termin yoxsulluğu və müxtəlif ədəbiyyatşünaslıq anlayışlarının ifadəsində çətinliklər; Eyni anlayışlar müqabilində işlədilən terminlər bolluğundan yaranan problemlər (sinonimlik və dubletlik). Ədəbi-bədii nəsr janrlarının müxtəlif istilah altında qruplaşdırılması meyli və ədəbiyyatşünaslıq terminlərinin unifikasiyası məsələsi.

2.Müasir dünya ədəbiyyatşünaslığında ədəbiyyatın nəzəri-estetik məsələlərinin tədqiqi, ədəbiyyat tarixlərinin yazılışı, sənətkar və onun əsərinin təhlili üsullarına dair mövcud olan cərəyan, məktəb, metod və metodoloji konsepsiyalarla əlaqədar elmi-nəzəri kitabların türk dilinə tərcüməsi və nəşri. Türk ədəbiyyatşünaslıq əsərlərinin nəzəri-metodoloji əsaslarını təşkil edən sosial-tarixi, fəlsəfi, estetik, pozitivist, genetik, formalist, psixoloji, plüralist və s. konsepsiyalar.

3.Müasir türk ədəbiyyatşünaslığında ədəbi-nəzəri polemikalar. Bədii əsərin tematikasına görə dəyərləndirilməsi: "kənd ədəbiyyatı" – "şəhər ədəbiyyatı"; Bədii əsərin "Best-seller" (ən çox satılan), yaxud ən çox oxunan kitab baxımından qiymətləndirilməsi; Bədii əsərin dil və üslubuna görə dəyərləndirilməsi: "küfür ədəbiyyatı", "müstehcen (açıq-saçıq) ədəbiyyat", "muzir (zərərli) ədəbiyyat".

4.Türk ədəbi tənqidində bədii əsərin təhlili prinsipləri: Yazıçıya görə; Oxucuya görə; Mətnə (əsərin özünə) görə. Ədəbi tənqiddə plüralizm. "Sıvı uc" tənqid və Nurullah Atac. "Katı uc" tənqid və Fəthi Naci. "Sayğın" (obyektiv-elmi) tənqid və Hüseyn Cöntürk. Ədəbi tənqid və esseçilik. Sabahaddin Eyuboğlu, Suut Kamal Yetkin, Nərmi Uyqur, Asım Bezirci, Rauf Mutluay. Ədəbi tənqid və resenziyaçılıq. Çetin Altan, Elif Şafaq, Səlim İləri, Hilmi Yavuz.

5.Türk ədəbiyyatşünaslığında klassik irsə münasibət. Ənənə və novatorluq. Xələf-sələf münasibətləri. Osmanlı türkçəsində qələmə alımış əsərlərin müasir türk əlif-basına transliterasiyası, yaxud müasir türk dilinə tərcüməsi problemi.

6.Türk ədəbiyyatşünaslığında ədəbiyyatın tarixi-xronoloji inkişaf mərhələlərinin təsnifatındakı fikir müxtəlifliyi. Türk və Türkiyə ədəbiyyatı anlayışları. Ümumtürk ədəbi fonduna münasibət. Müasir Türkiyənin sərhədlərindən kənarda qalan Osmanlı İmperatorluğuna daxil olmuş ölkələrdə yaranan türk ədəbiyyatına münasibət.

7.XX əsrin I yarısında Türkiyədəki Azərbaycan mühacir ədəbiyyatı və publisistikasının türk ədəbiyyatında yeri. Türkçülük məfkurəsi və Azərbaycan siyasi mühacirləri. Əli Bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əhməd Ağaoğlu, Səməd Ağaoğlu, Mirzə Bala Məmmədzadə və b.

8.Müasir türk ədəbiyyatşünaslığı və müqayisəli ədəbiyyatşünaslıq. Türkiyə-Azərbaycan qarşılıqlı ədəbi əlaqələri. Bu dillərdən qarşılıqlı bədii tərcümə məsələləri.

**Mövzu planı**

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Müasir türk ədəbiyyatşünaslığında anlayışlar və terminologiya problemi | 2 | 2 | |
| 2 | Müasir dünya ədəbiyyatşünaslığında nəzəri-estetik məsələlərin tədqiqi | 2 | 2 | |
| 3 | Müasir türk ədəbiyyatşünaslığında ədəbi-nəzəri polemikalar | 6 | 4 | 2 |
| 4 | Türk ədəbi tənqidində bədii əsərin təhlili prinsipləri | 6 | 4 | 2 |
| 5 | Türk ədəbiyyatşünaslığında klassik irsə münasibət | 4 | 4 | |
| 6 | Türk ədəbiyyatşünaslığında ədəbiyyatın tarixi-xronoloji inkişaf mərhələlərinin təsnifatı məsələsi | 4 | 2 | 2 |
| 7 | XX əsrin I yarısında Türkiyədəki Azərbaycan mühacir ədəbiyyatı və publisistikası | 4 | 4 | |
| 8 | Müasir türk ədəbiyyatşünaslığı və müqayisəli ədəbiyyatşünaslıq | 4 | 2 | 2 |
| | Cəmi | 32 | 24 | 8 |

**Ədəbiyyat:**


1. Aydın Abi Aydın (Abıyev A.). Türkiyə ədəbiyyatı tarixi. I cild. Bakı, Tural NPM, 2005
2. Əliyeva J.F. Çağdaş türk şerinin poetikası. Bakı: Elm, 2000
3. Rəsulov Ə.A. Türk sənədli-bədii nəsri. Bakı: "Elm", Nurlan NPM, 2004
4. Aytaç Gürsel. Genel Edebiyat Bilimi. İstanbul: Papirüs Yayınları, 1999
5. Aytaç Gürsel. Karşılaştırmalı Edebiyat Bilimi. İstanbul: Papirüs Yn, 1997
6. Banarlı Nıhat Sami. Resimli Türk Edebiyatı Tarihi: 2 ciltte, İstanbul: Milli Eğitim Basımevi, 1987
7. Demiray Kemal. Edebiyatta Türler. İstanbul: İnkılap ve Aka Yayın., I971
8. Gariboğlu Kemal. Edebiyat Bilgileri. Ankara: Gariboğlu Yayınları, 1969
9. Karaalioğlu Seyit Kemal. Edebiyat Terimleri Kılavuzu. İstanbul: İnkılap ve Aka Yayınları, 1975
10. Köprülü Mehmet Fuat. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken, 1986
11. Kudret Cevdet. Türk Edebiyatında Hikaye ve Roman: 2 ciltte. İstanbul: Varlık Yayınları, 1977

12. Kurdakul Şükran. Çağdaş Türk Edebiyatı.Cumhuriyet Dönemi [1923-1950]. İstanbul: Broy Yayınları, 1987
13. Moran Berna. Edebiyat Kuramları ve Eleştiri. İstanbul: İstanbul Üniversitesi Yayınları, 1972
14. Moran Berna. Türk Romanına Eleştirel Bir Bakış. 3 ciltte. İstanbul: İleti-şim Yayınları, 2001
15. Mutluay Rauf. 100 Soruda Edebiyat Bilgileri. İstanbul: Gerçek Yn., 1977
16. Özdemir Emin. Yazınsal Türler. Ankara: Bilgi Yayınevi, 1994
17. Tanpınar Ahmet Hamdi. I9-cu Asır Türk Edebiyatı Tarihi. İstanbul: Çağlayan Yayınları, 1976
18. Айзенштейн Н.А. Из истории турецкого реализма. Заметки о турецкой прозе (70-е годы X1X в. - 30-е годы XX в.). М.: Наука, 1968
19. Алькаева Л.О. Из истории турецкого романа. 20-50-ые годы XX в. М.: Наука, 1975
20. Ахмедов Р.С. Литературные процессы в новой турецкой литературе. Баку: Нафта-Пресс, 2002
21. Бабаев Акшин А. Социальные мотивы в современной турецкой драматургии. Баку: Элм, 1982
22. Маштакова Е.И. Турецкая литература конца XVII – начала XIX в. М.: Наука, 1984
23. Маштакова Е.И. Из истории сатиры и юмора в турецкой литературе (XIV -XVII вв.). М.: Наука, 1972
24. Меликов Т.Д. Назым Хикмет и новая поэзия Турции. М.: Наука, 1987
25. Меликов Т.Д. Турецкая поэзия 60-х-начала 70-х годов. М.: Наука, 1980
26. Утургаури С.Н. Турецкая проза 60-70-х годов. Основные тенденции развития. М.: Наука, 1982.

## MƏNBƏŞÜNASLIQ

Mənbəşünaslıq filologiyanın müstəqil və nisbətən yeni elm sahələrindən biridir. XX əsrin II yarısından etibarən bu sahədə xeyli miqdarda tədqiqatlar aparılmış və elmi biliklər sistemi formalaşmışdır.

Müasir dövrdə mənbəşünaslıq yazılı abidələrin tədqiqində istifadə edilən, nəzəri və tətbiqi sahələri olan filoloji üsullar sistemidir. Onun əsas məqsəd və vəzifəsi ayrı-ayrı elmi fənlərin mənbələrini tədqiq etmək, bu mənbələrin aşkara çıxarılmasının nəzəriyyə və təcrübəsini, yaranması qanunauyğunluqlarını öyrənmək, bu mənbələri elm sahələrinə və tarixi-xronoloji ardıcıllığa görə təsnif etmək, mənbələr üzrə tədqiqatların metodikasını işləyib hazırlamaqdır.

Digər tərəfdən, mənbəşünaslıq elmi mətnşünaslıq işi ilə də sıx əlaqəlidir. Belə ki, ədəbiyyatşünaslığın köməkçi qolu kimi əlyazma nüsxəsinin mətnini düzgün oxumaq və əsərin düzgün mətnini bərpa etmək məqsədilə aparılan mətnşünaslıq yazılı abidələrdəki sözü, sözlərin inkişaf tarixini tədqiq edir, yazılı mətnin qrammatik quruluşunu, dil-üslub xüsusiyyətlərini öyrənir ki, bu da linqvistik mənbəşünaslıq fənnini yaradır.

Türk xalqları təxminən min illik bir dövr ərzində ərəb, fars və türk dillərində yazıb-yaratdıqlarına və müxtəlif yazı qrafikalarından istifadə etdiklərinə görə ümumtürk sivilizasiyasının qədim və zəngin bir qolu olan Türkiyə mənbəşünaslığı da çoxpilləlidir, başqa sözlə, türk mənbəşünaslığı ərəbdilli, farsdilli və türkdilli yazılı mənbələri əhatə edir.

Qədim Şərq dillərində yazılıb, günümüzə gəlib çatmış dini və dünyəvi məzmunlu tərcümə-təbdil əsərləri də ümumtürk poeziyasının, nəsr təhkiyyəsinin, bütövlükdə türk dili və ədəbiyyatının öyrənilməsində əvəzsiz mənbələrdir.

XVIII əsrin ortalarına qədər osmanlı türk yazılı abidələri, əsasən, əlyazma əsərlər şəklində mövcud olmuşdur. 1729-cu ildə İstanbulda ilk dövlət mətbəəsinin qurulması ilə kütləvi çap işi gerçəkləşmiş, mətbu mənbələr də yaranmağa başlamışdır.

Əlbəttə, yazılı abidələr müxtəlif elm sahələri üçün mənbəşünaslıq bazasını təşkil edir. Bu proqram magistr tələbələri türk ədəbiyyatının ən mühüm mənbələri, türk ədəbiyyatı qaynaqları kimi maraq doğuran Qədim və Orta əsrlər ümumtürk yazılı abidələri ilə tanış etmək, VII–XVIII əsrlərin yazılı mənbələrinin dolğunluq və müxtəlifliyini göstərmək, həmçinin bu mənbələrin tərcümə və nəşri ilə məlumatlandırmaq məqsədini daşıyır.

Proqramın həcmi 32 saatdır, o cümlədən 24 saat mühazirə, 8 saat seminar məşğələləri üçün nəzərdə tutulmuşdur.

1.Mənbəşünaslıq yazılı mənbələrin tədqiqini həyata keçirən, onların tarixini öyrənən, təsnifatını aparan filoloji elm kimi. Mənbəşünaslıq və onun nəzəri əsasları. Mənbəşünaslığın əsas məqsəd və vəzifələri. Azərbaycan türkologiyasında mənbəşünaslığın təşəkkülü və inkişafı. Türkiyə ədəbiyyatşünas - mənbəşünasları Mehmet Fuat Köprülü, Agah Sirri Levend, Əbdülbaqi Gölpınarlı, Rəşid Rəhməti Arat, Vəsfi Mahir Qocatürk, Bəsim Atalay, Əhməd Həmdi Tanpınar, Əbdülqadir Qaraxan, Mehmet Qaplan, İskender Pala, Osman Fikri Sərtqaya, Fahir İz, Faruk Sümer, Faiq Rəşid Unat b. haqqında ümumi məlumat.

2.Mənbəşünaslıq və Qədim türk əlyazma kitabları. Şərq əlyazma kataloqlarına əsasən dünyanın böyük kitabxana, elm mərkəzi, əlyazma xəzinələri və muzeylərində mühafizə olunan türk əlyazmaları ( AMEA Füzuli adına Əlyazmalar İnstitutu, İstanbul Topqapı Sarayı kitabxanası,  Berlin Alman Elmlər Akademiyası, Sankt Peterburq Asiya Muzeyi və s.) haqqında ümumi bilgi.

3.Türk yazılı mənbələrinin qələmə alındıqları əlifbalar haqqında ümumi məlumat. Runik (Göytürk) əlifbası. Uyğur əlifbası. Ərəb əlifbası qrafikalı osmanlı əlifbası. Latın qrafikası əsaslı türk əlifbası.

4.İslamaqədərki türk yazılı abidələri ümumtürk ədəbi fondunun ən qiymətli mənbələri kimi. Qədim türk (run) əlifbası ilə yazılmış kitabələr. Göytürk və ya Orxon-Yenisey abidələri. Ongin abidəsi (VII əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəli); Tonyukuk abidəsi (VIII əsrin ilk onilliyinin sonu ikinci onilliyin əvvəlləri); Kül tiqin abidəsi (732-ci il); Bilgə xaqan abidəsi (734-cü il).

5.Maniçi və Buddist dini-mistik mənbələr. Qədim Şərq (İran, sanskrit, Çin, Tibet) dillərindən tərcümə-təbdil edilmiş əsərlər. VIII əsrə aid "Xuastuanift" (Maniçilərin tövbə duası) əsəri. X əsrdə Çin dilindən tərcümə-təbdil edilən "Altun yaruk" (Qızıl işıq) əsəri.

6.Erkən Orta əsrlərə aid ümumtürk ədəbi mənbələri. Yusuf Xas Xacib (Yusuf Balasaqunlu) və onun "Kutadqu bilik" epik-didaktik poeması. Mahmud Kaşqarlı və onun ərəb dilində tərtib etdiyi "Divani-luğat-it türk" ensilkopedik lüğəti. Əhməd Yəsəvi və onun "Divani-hikmət" əsəri. Ədib Əhməd Yüknəki və onun "Atabət-ül həqayiq" əsəri.

7.Vaqeənamələr. Onların sinkretizmi və ədəbi-bədii dəyərləri. Dərviş Əhməd Aşıqinin "Aşiqpaşazadə tarixi". Mustafa Naimanın "Tarix"i. İbrahim Peçevinin "Tarix"i. Anonim "Tevarixi-Ali-Osman"lar.

8.Səyahətnamələr. Onların sinkretizmi və ədəbi-bədii dəyərləri. Seydi Əli Rəisin "Mirat-ül memalik" ("Ölkələrin aynası") əsəri. Övliya Çələbinin on cildlik "Səyahətnamə"si.

9.Səfarətnamələr. XVII əsrin sonu –XVIII əsrlərdə yazılmış səfarətnamələr. İyirmisəkkiz Mehmet Çələbinin "Fransa səfarətnaməsi" (XVIII əsr). Əhməd Resminin "Vyana səfarətnaməsi". Şəhdi Osmanın "Rusya səfarətnaməsi".

10.Risalələr mənbəşünaslıq kontekstində. Risalələrin bədii publisistliyi və sənədli-bədii mənbələr olaraq dəyərləri. Kastamonulu Lətifinin "Risaleyi-evsafı-İstanbul" əsəri. Koçi Bəyin məktub-risalələri. Katib Çələbinin elmi-publisistik risalələri: "Fəzləkə", "Cihannüma", "Düsturul-əməl" və s.; Resmi Əhməd Əfəndinin "Xülasatül-etibar" əsəri.

11.Təzkirələr və münşeat məcmuələri türk ədəbiyyatının mühüm mənbələri kimi. Təzkirənin növləri: Təzkirət əş-şuara, Təzkirət əl-övliya və s. Təzkirənin sinkretizmi: ədəbi və aqioqrafik komponentlərin mövcudluğu. Elmə məlum ilk Osmanlı təzkirəsi: Ədirnəli Səhi Bəyin "Həşt Behişt" əsəri. Kastamonulu Lətifinin, Aşiq Çələbinin, Qınalızadə Həsən Çələbinin, Bağdadlı Əhdinin təzkirələri. Feridun Bəyin "Münşeat üs-selatin" əsəri, Tokatlı Əbubəkr Kaninin məktubları.

12.Türkyədə ilk rəsmi dövlət mətbəəsinin qurulması və mətbu üsulla türk mənbələrinin kütləvi şəkildə çapı (1729-cu il).

**Mövzu planı**

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Mənbəşünaslıq yazılı mənbələrin tədqiqini həyata keçirən filoloji elm kimi | 2 | 2 | |
| 2 | Mənbəşünaslıq və Qədim türk əlyazma kitabları | 4 | 2 | 2 |
| 3 | Türk yazılı mənbələrinin qələmə alındıqları əlifbalar | 2 | 2 | |
| 4 | İslamaqədərki türk yazılı abidələri ümumtürk ədəbi fondunun mənbələri kimi | 4 | 2 | 2 |
| 5 | Maniçi və Buddist dini-mistik mənbələr | 2 | 2 | |
| 6 | Erkən Orta əsrlərə aid ümumtürk ədəbi mənbələri | 4 | 2 | 2 |
| 7 | Vaqeənamələr mənbəşünaslıq kontekstində | 2 | 2 | |
| 8 | Səyahətnamələr mənbəşünaslıq kontekstində | 2 | 2 | |
| 9 | Səfarətnamələr mənbəşünaslıq kontekstində | 2 | 2 | |
| 10 | Risalələr mənbəşünaslıq kontekstində | 2 | 2 | |
| 11 | Təzkirələr mənbəşünaslıq kontekstində | 4 | 2 | 2 |
| 12 | Mətbu üsulla türk mənbələrinin kütləvi çapı | 2 | 2 | |
| | Cəmi | 32 | 24 | 8 |

**Ədəbiyyat:**


1.Adilov M. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. Bakı, Nurlan, 2002.
2.Aşıkpaşaoğlu Tarihi. İstanbul, 100 Temel Eser Yayınları, 1970.
3.Aytən Aydınqızı. Ümumtürk mənbəşünaslığı. Bakı, BU nəşriyyatı, 1999.
4.Candan Ergun. Türklerin Kültür Kökenleri, İstanbul, Sınırötesi Yn., 2002.
5.Cəfərov Nizami. Qədim türk ədəbiyyatı. Bakı, AzAtaM, Nurlan, 2004.
6.Дмитриева Л.В. Описание тюркских рукописей Института востоковедения. М., Наука, 1980.
7.Əlyazmalar xəzinəsində. Bakı, I-VIII c. 1961-1987.
8.Gökyay Orhan Şaik. Türkçede Gezi Kitapları // “Türk Dili” dergisi, Ankara, 1973, № 258.
9.Köprülü Mehmet Fuat. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken, 1986.
10.Köprülü Mehmet F. Türk Edebiyatında İlk Mutasavvıflar. Ankara, 1991.
11.Крачковский И.Ю. Турецкая географическая литература XУ - X1X

вв. Избранные соч.: В 4-х т. Т.IV, М.- Л.: Изд.-во АН СССР, 1957.
12.Levend Agah Sırrı. Türk Edebiyatı Tarihi. Ankara: TTK, 1973.
13.Маштакова Е.И. Турецкая литература конца XVII - начала XIX в., М., 1984.
14.Маштакова Е.И. Сефаретнаме как жанровая форма турецкой литературы XVIII века // Тюркологический сборник 1973. М. Наука, 1975.
15.Musayeva Azadə. "Mətnşünaslığın nəzəri əsasları" xüsusi kurs proqramı. Bakı, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, 2003.
16.Musayeva A.Ş. Mətnşünaslığın nəzəri və təcrübi əsasları. Bakı, Elm, 2007.
17.Rəsulov Əsgər. Türk sənədli-bədii nəsri. Bakı Elm, Nurlan NPM, 2004.
18.Timurtaş Faruk K. Tarih İçinde Türk Edebiyatı.İstanbul, 1990.
19.Topkapı sarayı kütüphanesi Türkçe yazmalar kataloğu. İstanbul, 1961.
20.Türkiye yazmaları toplu kataloğu. I c.Ankara, TTK Basımevi, 1981.

# MƏTNŞÜNASLIQ

Mətnşünaslıq filologiyanın müstəqil elm sahələrindən biridir. Bu elmin vətəni Şərqdir. Belə ki, Şərqdə mətnşünaslıq Avropadan xeyli qabaqlar yaranmış və ilk elmi-tənqidi mətnlər hazırlanması işi də məhz müsəlmanlar (ərəblər, farslar, türklər) tərəfindən həyata keçirilmiş, bu sahədə külli miqdarda tədqiqatlar aparılmış və elmi biliklər sistemi formalaşmışdır.

Türk xalqları islamı qəbul etdikdən sonra, təxminən min illik bir dövr ərzində ərəb, fars və türk dillərində yazıb-yaratmışlar, buna görə də türk xalqlarının milli paleoqrafiya elmi və təbii ki, mətnşünaslığı çoxpilləlidir. Belə ki, milli baxımdan, yəni milli mənsubiyyətinə görə türk paleoqrafiyası dil (və yazı sistemi - qrafikası) planında ərəb, fars və türk paleoqrafiyası anlayışlarını, mətnşünaslıq baxımından ərəbdilli türk, farsdilli türk və türkdilli əlyazma əsərlərini əhatə edir. Bu paleoqrafiya həmçinin ümumislam paleoqrafiyasının tərkib hissəsini təşkil edir.

Hal-hazırda yalnız Türkiyədə mühafizə edilən əlyazma əsər sayı təxminən 300 000 cilddir. Bu əsərlər Kitabxanalar və Yayınlar Genel Müdürlüyü tabeçiliyindəki 35 kitabxanada mühafizə edilir ki, bunların 13-ü əlyazma əsərlər kitabxanasıdır.

Müasir dövrdə mətnşünaslıq abidələrin nəşrində tətbiq edilən filoloji üsullar sistemidir, tətbiqi filologiyadır. Onun əsas məqsəd və vəzifəsi ilkin mənbələr əsasında yoxlanılmış və hər cür təhrif və nöqsanlardan təmizlənmiş müəllif mətninin nəşrə hazırlanmasıdır.

Digər tərəfdən, mətnşünaslıq işi həm də ədəbiyyatşünaslığın köməkçi qolu kimi əlyazma nüsxəsinin mətnini düzgün oxumaq və əsərin düzgün mətnini bərpa etmək məqsədilə aparılır.

Nəhayət, mətnşünaslıq yazılı abidələrdəki sözü, sözlərin inkişaf tarixini tədqiq edir, yazılı mətnin qrammatik quruluşunu, dil-üslub xüsusiyyətlərini öyrənir

ki, bu da mətnşünaslığı həm də dilçilik elminin ayrıca bir qoluna çevirir və linqvistik mənbəşünaslıq fənnini yaradır.

Filoloqların, o cümlədən türkoloq-şərqşünasların mətnşünaslığı bir elm kimi öyrənmələri müasir dövrün tələbi, çağdaş zamanın doğurduğu zərurətdir.

Bu proqram mətnşünaslığın bir elm kimi öyrənilməsi, əlyazma kitabları ilə arxiv materiallarından istifadə üsulları, mətn, əsər, nüsxə, surət, əlyazma və s. fərqini, əlavə və ixtisarları müəyyənləşdirmə, mətnlərin təsnifatı yolları, elmi-tənqidi mətnlərin tərtibi kimi məsələlərin tədrisi məqsədilə tərtib edilmişdir.

Proqramın həcmi 32 saatdır, o cümlədən 22 saat mühazirə və 10 saat seminar məşğələləri nəzərdə tutulmuşdur.

1.Mətnşünaslıq mətnlərin tədqiqi və nəşrini həyata keçirən, əsər mətninin tarixini öyrənən filoloji elm kimi. Mətnşünaslıq və onun nəzəri əsasları haqqında ümumi məlumat. Mətnşünaslığın əsas məqsəd və vəzifələri.

2.Azərbaycanda mətnşünaslığın təşəkkülü və inkişafı. Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və Azərbaycan mətnşünasları, o cümlədən Osmanlı türk əlyazma mətnşünasları Salman Mümtaz, Məmmədağa Sultanov, Əziz Mirəhmədov, Cahangir Qəhrəmanov, Əzizağa Məmmədov, Həmid Araslı, Tahir Məhərrəmov, Şamil Cəmşidov, Azadə Musayeva, Cənnət Nağıyeva, Məmməd Adilov, Möhsün Nağısoylu, Kamandar Şərifov, Mehri Məmmədova, Paşa Kərimov və başqalarının elmi fəaliyyəti haqqında ümumi bilgi.

3.Türkiyə ədəbiyyatşünas və dilçi mətnşünasları: Mehmet Fuat Köprülü, Agah Sirri Levend, Əbdülbaqi Gölpınarlı, Rəşid Rəhməti Arat, Vəsfi Mahir Qocatürk, Bəsim Atalay, Əhməd Həmdi Tanpınar, Əbdülqadir Qaraxan, Mehmet Qaplan, İskender Pala, Osman Fikri Sertkaya, Fahir İz, Faruk Sümer, və b. haqqında ümumi məlumat.

4.Əlyazma anlayışı. Xəttatlıq və həkkaklıq sənətinin oxşar və fərqli cəhətləri. Kitab mədəniyyəti. Paleoqrafiya və onun köməkçi sahələri: arxeologiya, kodikologiya, arxivşünaslıq, diplomatika, epiqrafika, numizmatika, sfragistika.

5.Əlyazma kitabı və onun növləri. Kitabın formal əlamətləri. Kitabın içi. Kitabın formal növləri. Kitabın quruluşu: titul səhifəsi, frontispis (sərtac), ünvan,

bəsmələ, müəllif başlanğıcı, əsərin əsas mətni, müəllif kolofonu, katib kolofonu. Yazı materialı. Filiqranlar. Kitabın bədii tərtibatı: ornamentalist və təzyinat işi, rəssam və miniatür çəkimi, müsəhhih və səhifələmə işi, cildləmə (yaxud yenidən cildləmə) işi. Qədim türk əlyazma kitablarının növləri (A.fon Qaben təsnifatı): Avropa tipli əlyazma kitabları, poti yarpaqlarından düzəldilmiş kiçik və böyük ölçülü kitablar, lüləşəkilli bürmələnmiş kitablar, vərəqlər qatlanıb üst-üstə qalaqlanmış kitablar.

6.Müəllif anlayışı. Atribusiya və ateteza problemi. Katiblər. Xəttatlar. Nəssaxlar. Xətt və növləri. Xətti-bədii. Xətti-təhriri. Kufi xətti və onun növləri. Nəsx xətti. Nəstəliq xətti. Şikəstə xətti. Süls xətti. Reyhani xətti. Təliq xətti. Divani xətti Osmanlı türklərinin əsas rəsmi xətti kimi.

7.Əlyazmalarda orfoqrafiya və orfoepiya problemləri. Fonetik problemlər: sait problemi, samit poblemi, ahəng qanunu problemi. Leksik problemlər: onomastika problemləri, alınma sözlər problemi. Sintaktik problemlər: izafət problemi. Durğu işarələri və imla problemi.

8.Mətnin əsas anlayışları. Mətnin tarixinin müəyyənləşdirilməsi. Mətnlərin təsnifatı. Nüsxə fərqlərinin və müxtəlif oxuların təhlili. Nüsxənin qədimliyi və mətnin qədimliyi: əlyazma, nüsxə, avtoqraf, surət. Mətbəə, yaxud daş-basma (pitoqrafiya) çapı. Abidə mətninin dəyişiklikləri və dəyişiklik səbəbləri. Əlavə və ixtisarların müəyyənləşdirilməsi. Mətnin növləri, variant, arxetip, protoqraf və s.

9.Mətnin oxunması, nüsxə fərqlərinin öyrənilməsi, yanlışların korrektəsi. Mətnin nəşrə hazırlanması. Mətnlərin nəşri texnikası və nəşrlərin tipləri: elmi-tənqidi nəşrlər, faksimile nəşrlər, diplomatik nəşrlər. Nəşrlərin fərqli təsnifatı: qədim abidələr, orta əsrlər, əlyazmalar əsasında, yeni dövr və s. Əlyazma nüsxəsinin seçilməsi, əsas nüsxənin müəyyən edilməsi.

10.Şərq əlyazma kataloqlarına əsasən dünyanın böyük kitabxana, elm mərkəzi, əlyazma xəzinələri və muzeylərində mühafizə olunan türk əlyazmaları, o cümlədən Türk xalqlarının islamaqədərki yazılı abidələrinin Berlindəki Alman Elmlər Akademiyası, Sankt-Peterburqdakı Asiya Muzeyi, Ser Aurel Steynin Londonun Britaniya Muzeyindəki zəngin kolleksiyaları haqqında ümumi bilgi.

Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutu fondunda mühafizə edilən Osmanlı türk əlyazmaları haqqında məlumat.

**Mövzu planı**

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Mətnşünaslıq mətnlərin tədqiqi və nəşrini həyata keçirən, mətn tarixini öyrənən filoloji elm kimi | 2 | 2 | |
| 2 | Azərbaycanda mətnşünaslığın təşəkkülü və inkişafı | 2 | 2 | |
| 3 | Türk ədəbiyyatşünas-mətnşünasları | 4 | 2 | |
| 4 | Əlyazma anlayışı | 6 | 4 | 2 |
| 5 | Əlyazma kitabı və onun növləri | 4 | 4 | |
| 6 | Müəllif anlayışı | 2 | 2 | |
| 7 | Əlyazmalarda orfoqrafiya və orfoepiya problemləri | 4 | 2 | 2 |
| 8 | Mətnin əsas anlayışları | 2 | 2 | |
| 9 | Mətnlərin nəşri texnikası və nəşrlərin tipləri | 4 | 2 | 2 |
| 10 | Şərq əlyazma kataloqlarına əsasən türk əlyazmaları | 2 | | 2 |
| | Cəmi | 32 | 24 | 8 |

**Ədəbiyyat:**

1.Musayeva Azadə. “Mətnşünaslığın nəzəri əsasları” xüsusi kurs proqramı. Bakı, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, 2003.
2.Musayeva A.Ş. Mətnşünaslığın nəzəri və təcrübi əsasları. Bakı, Elm, 2007.
3.Adilov M. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. Bakı, Nurlan, 2002.
4.Kamandar Şərifli. Mətnşünaslığın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, Nurlan, 2003.
5.Darabadi Q.A. Kalliqrafiya, Bakı, ADU nəşri, 1953.
6.Əzizov M. Ərəb qrafikasında xətt növləri. İslam dünyası, No: 20-25
7.Əlyazmalar xəzinəsində. Bakı, I-VIII c. 1961-1987.
8.Topkapı sarayı kütüphanesi Türkçe yazmalar kataloğu. İstanbul, 1961.
9.Türkiye yazmaları toplu kataloğu. I c.Ankara, TTK Basımevi, 1981.
10.Baltacı C. İslam paleografiyası. İstanbul, 1989.
11.Derman M.U. Türk hat sanatının şah eserleri. İstan. Kültür Bk.Yn.,1981
12.Лихачев Д.С. Текстология. Л., 1983.
13.Дмитриева Л.В. Описание тюркских рукописей Института востоковедения. М.,Наука, 1980.
14.Дмитриева Л.В. Турецкая арабописьменная рукописная книга. –

Рукописная книга в культуре народов Востока. Книга первая. М., 1987.

## XÜSUSİ KURS: TÜRK SƏNƏDLİ – BƏDİİ NƏSRİ

Sənədli-bədii nəsr Türkiyə ədəbiyyatı tarixində və müasir ədəbi prosesdə qabaqcıl mövqe tutur. Bədii-publisistik ədəbiyyatı tarixi aspektdə və müasir təcrübədə öyrənməklə belə bir qənaətə gəlmək mümkündür ki, sənədli-bədii janrlar türk nəsrinin bütün inkişaf mərhələlərində yeni həyati materialın, fakt və hadisələrin dərk edilməsi, Türkiyə üçün aktual və zəruri sayılan siyasi, iqtisadi və sosial problemlərin əks etdirilməsi və bunların ətrafında fəal ictimai rəy yaradılması, xalqın maarifləndirilməsi işində ədəbiyyatın ən çevik və təsirli janrları olmuşdur. Yazıçılar bədii cəhətdən mənalandırılmasına xüsusi vaxt tələb olunan mövzuları çox zaman operativlik imkanına və fəal təsir gücünə malik bədii-publisistik janrlarda ifadə etməyə üstünlük vermişlər.

Bədii-publisistik janrların tədqiqi bütövlükdə türk nəsrinin inkişaf qanunauyğunluqlarının öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu sahədə aparılan araşdırmalar böyük elmi-nəzəri və praktik əhəmiyyət kəsb edərək, bir tərəfdən ədəbi prosesin dinamikasını, bu və ya digər inkişaf mərhələsində ədəbiyyatın ideya-estetik prinsiplərinin təkamülünü müəyyənləşdirməyə, digər tərəfdən ayrı-ayrı janrların, həm də bütövlükdə ədəbiyyatın tematikasının və bədii imkanlarının köklərini və onları zənginləşdirən başlıca ədəbi-ictimai amilləri ortaya çıxarmağa kömək edir.

Bu proqram magistraturada təhsil alan tələbələri Türkiyə ədəbiyyatının və bütövlükdə təhkiyə mədəniyyətinin əsas qaynaqlarından birini təşkil edən sənədli-bədii nəsr və onun ilkin janr və formaları, müasir bədii publisistika ilə əlaqələri haqqında geniş məlumatlandırmaq, bu sahədə fəaliyyət göstərən tanınmış türk yazıçı və publisistlərinin sənədli nəsr yaradıcılığına dair dərin bilik vermək məqsədilə tərtib olunmuşdur.

Proqramın həcmi 32 saatdır, o cümlədən 24 saat mühazirə, 8 saat seminar məşğələləri üçün nəzərdə tutulmuşdur.

1.Sənədli nəsr bədii ədəbiyyatla publisistikanın, elmlə sənətin hüdudunda yaranan və təbiətində sosioloji, publisistik və bədiilik kimi üç əsas metodoloji yaradıcılıq keyfiyyətini qovuşduran incəsənət forması kimi.

1.1..Sənədli nəsrin sənətkarlıq xüsusiyyətləri. Sənədli nəsrin publisistliyi. Bədii publisistikanın digər spesifik məziyyətləri – sənədlilik, özünəməxsus yolla tipik-ləşdirmə, süjet və kompozisiya, dil və üslub xüsusiyyətləri.

2.Türk ədəbiyyatı tarixləri və sənədli nəsr.

2.1Türk ədəbiyyatı nəzəriyyələri və sənədli nəsr.

2.2.”Kompozisyon” kitabları və sənədli nəsr.

3.**S**ənədli nəsrin təşəkkülü və təkamülünün tarixi-xronoloji hüdudları:

3.1.Birinci dövr: XV əsr (türkologiyaya məlum ilk yazılı Türkiyə sənədli-bədii nəsr əsərlərinin meydana gəldiyi yüzildən) – XIX əsrin 30-cu illərinə (Türkiyədə dövri mətbuatın ortaya çıxışına) qədər;

3.2.İkinci dövr: XIX əsrin 30-cu illərindən – XX əsrin I rübünün sonlarına (Türkiyə Respublikası qurulana) qədər;

3.3.Üçüncü dövr: Cümhuriyyət dövrü (1923-cü ildən bu günə qədər).

4.Klassik türk ədəbiyyatında sənədli nəsr tipləri:

4.1.Tarix nəsri – vaqiənamə. Dərviş Əhməd Aşıqinin (1393-1481) “Təvarixi-Ali-Osman” əsəri. Mustafa Naimanın (1652-1715) “Tarix”i.

4.2.Coğrafiya nəsri – səyahətnamə. Seydi Əli Rəis (1498-1563) türk səyahət ədəbiyyatının elmə məlum ilk tanınmış nümayəndəsi kimi. Onun “Mirat-ül memalik” (“Ölkələrin aynası”) əsəri. XVII əsrin görkəmli səyyahı Övliya Çələbinin oncildlik “Səyahətnamə”si kamil sənədli nəsr nümunəsi kimi.

4.3.İşgüzar nəsr – səfarətnamə. F.R.Unatın “Osmanlı səfirləri və səfarətnamə-ləri” adlı tədqiqatı. İyirmisəkkiz Mehmet Çələbinin (XVIII əsr) “Paris səfarətna-məsi”.

4.4.Publisistik nəsr – risalə. Kastamonulu Lətifinin (1491-1582) “Risale-i evsafı – İstanbul” əsəri, Koçi Bəyin (XVII əsr) “Risalə”ləri, Katib Çələbinin (1608-1656) “Fəzləkə”si.

4.5.Bioqrafik nəsr – təzkirə. Elmə məlum ilk osmanlı türk təzkirəsi - Səhi Bəyin Qanuni Sultan Süleymana təqdim etdiyi "Həşt behişt" əsəri (1538). Kastamonulu Lətifinin şairlər təzkirəsi (1546). Aşiq Çələbinin Sultan II Səlimə təqdim etdiyi dörd yüz şairin tərcümeyi-halının toplandığı "Məşairüş-şüəra" təzkirəsi (1566). Qınalızadə Həsən Çələbinin "Təzkirətüş-şüəra"sı (1586).

4.6.Epistolyar nəsr – məktub. XVI əsrdə yaşamış Feridun Beyin rəsmi yazıları və məktublarından toplanmış "Münşeat-üs selatin"i. Tokatlı Əbubəkr Kaninin (1712-1792) məktubları və bir pişiyin dilindən yazılmış, bir müddət Osmanlı sədrəzəmi olmuş Yeğen Mehmet Paşanın tənqid edildiyi "Hirrənamə" satirik məktubu.

5.Sənədli nəsrin inkişafında yeni mərhələ. Dövri mətbuatın ortaya çıxması. 1831-ci ildə türk dilində ilk qəzetin – "Təqvimi-vəqayi"nin nəşri. "Cəridei-havadis", "Tərcümani-əhval" və "Təsviri-əfkar" qəzetlərinin, "Bəsirət", "Tərcümani-həqiqət" və s. kimi jurnalların Türkiyədə ictimai şüurun oyanmasında, "əfkarı-umumiyə" yaradılmasında, publisistikanın və ümumiyyətlə, ədəbiyyatın inkişafında rolu.

6.Tənzimat dövrü sənədli nəsri və maarifçilik. Ziya Paşanın (1825-1880) "Röya" bədii-publisistik əsəri. Müəllim Nacinin (1850-1893) "Ömərin uşaqlığı" adlı memuarları. Yeni türk nəsr dilinin və publisistik üslubunun formalaşması və inkişafında İbrahim Şinasi (1826-1871) və Namiq Kamalın (1840-1888) rolu və xidməti. N.Kamalın məktub formasına mətbuat janrı kimliyi qazandırması. Ədibin "Ramazan məktubları", "Londona səyahət", "Paris və türklər", "Sofyada keçən günlər", "Maqosa" kimi məktub formalı xatirə və səyahət oçerkləri. N.Kamalın ədəbi yaradıcılığında tarix və bioqrafiya janrı. Ədibin "Fateh Sultan Mehmet" bioqrafiyası. Yazıçı-publisist Əhməd Midhədin (1844-1911) sənədli nəsr yaradıcılığı. Əbdülhəq Hamidin (1852-1937) xatirələri və məktubları.

7."Ədəbiyyati-cədidə"də sənədli nəsr. "Sərvəti-fünun" ədəbi jurnalının (1895-1901) fəaliyyəti və bu jurnalda bəzi sənədli nəsr formalarının ilk dəfə işıq üzü görməsi. "Sərvəti-fünun" ədiblərindən Cənap Şahabəttinin (1870-1934) sənədli

nəsri. Ədibin “Həcc yolunda”, “Avropa məktubları” kitablarında topladığı səyahət oçerkləri.

8.İlk peşəkar türk publisist-fıkraçısı Əhməd Rasimin (1864-1932) sənədli nəsr yaradıcılığı. Ədibin “Şəhər məktubları”, “Məqalət və müsahabat”, “Tarix və mühərrir”, “Rumınya məktubları” , “Əşkali-zaman”, “Ciddü-mizah”, “Mətbuat xa-tirələri: mühərrir, şair, ədib”, “Gülüb ağladıqlarım”, “Mühərrir bu ya”, “Falaqqa” kitabları.

9.Xitabət sənəti və bədii nitq janrı. İlk peşəkar xatiblərdən Ömər Nacinin (1878-1916) bədii nitq yaradıcılığı. Həmdullah Sübhinin (1885-1966) bədii nitq yaradıcılığı.

10.Sənədli nəsrdə Türkiyə Milli-istiqlal mücadiləsi. Xalidə Ədibin (1882-1964) “Dağa çıxan qurd”, “İzmirdən Bursaya” , “Türkün atəşlə imtahanı”, “Mor salxımlı ev” əsərləri. Yaqub Qədrinin (1889-1974) “Milli-mücadilə xatirələri”, “Qadınlıq və qadınlarımız”, “Rəhmət”, “Ergenekon”, “Oxun ucundan”, “Vətən yolunda” , “Siyasətdə 45 il”, “Gənclik və ədəbiyyat xatirələri”, “Zorən diplomat” və s. sənədli nəsr kitabları. Y.Qədri türk sənədli ədəbiyyatında bioqrafiya janrının kamil sənətkarlarından biri kimi. Ədibin “Əhməd Haşim” və “Atatürk” bioqrafik əsərləri.

10.1.Yazıçı-jurnalist Rövşən Əşrəfin (1892-1959) bədii publisistika yaradıcılığı. R.Əşrəf türk sənədli nəsrində reportaj (mülakat) janrının yaradıcısı kimi. Ədibin “Köhnələr”, “Ziyarətlər”, “Ədəbi ziyarətlər və mülakatlar” kitabları. R.Əşrəfin bədii publisistikasında Mustafa Kamal. R.Əşrəfin İstanbul haqqında bədii-publisistik kitabları: “İki səltənət arasında”, “Keçmiş günlər”, “Ayrılıqlar”, “Boğaziçi – yaxın-dan”, “Boğaziçi – uzaqdan”.

11.Cümhuriyyət dövründə sənədli nəsr. Sənədli nəsrin özünüifadə mərhələsi (30-40-cı illər). Bu dövrün sənədli nəsrini təmsil edən ədiblər: Əhməd Haşim (1885-1933), Nazim Hikmət (1902-1963), Sədri Ertəm (1900-1943), Suad Dərviş (1905-1972), Naci Sadullah (1910-1975), Rəşad Nuri (1889-1956), Səid Faiq (1906-1954).

11.2.Sənədli nəsrin özünütəsdiq mərhələsi (50-60-ci illər). Sənədli ədəbiyyatın özünütəsdiqi və vətəndaşlıq hüququ qazanmasında Mahmud Makal (1933), Yaşar Kamal (1922), Orxan Kamal (1914-1970), Fikrət Otyam (1926), Nəcmi Onur (1925), Yılmaz Çətinər (1927-2006), Çətin Altan (1927), Dursun Akçam (1930-2003), Haldun Tanər (1915-1986) kimi realist yazıçı və publisitlərin rolu.

11.3.Sənədli nəsrin dinamik inkişaf mərhələsi (70-80-ci illər). Bəkir Yıldızın (1933-1998) sənədli nəsr yaradıcılığı. Ədibin "Türklər Almaniyada", "Harran", "Alman çörəyi" və "İnsan cecəsi. Cənub-Şərq zindanı" bədii-publisistik əsərləri. 2006-cı il ədəbiyyat üzrə Nobel mükafatı lauretı Orxan Pamukun (1952) müxtəlif janrlı - səyahət və portret oçerki, repotaj, memuar, esse və s. bədii-publisistik yazılarının toplandığı "Digər rənglər", "İstanbul- xatirələr və şəhər" kitabları.

12.Türk sənədli nəsrində satirik-publisistik üslublu maarifçi konsepsiya. Əziz Nesinin (1915-1995) ədəbi yaradıcılığı və publisistik fəaliyyəti. "Topunuzun kökünə kibrit suyu", "Sonuncu qonağıma" adını daşıyan açıq məktubları. Ə.Nesinin ilk kitabının çapdan çıxdığı 1945-ci ildən - 1995-ci ildə vəfatına qədər keçən 50 illik dövrdə nəşr olunmuş 100-dən artıq kitabı içərisində yer alan: "Belə gəlmiş, belə getməz" ikicildliyi, "Mənim dəlilərim", "Bir sürgünün xatirələri", "Salxım-salxım asılacaq adamlar", "Mən də uşaq idim", "Polisdə" kimi memuar kitabları; "Heyvan deyib də keçmə", "Nitq maşını", "İnsanlar danışa-danışa", "Bir tutam aydınlıq", "Az getdik, uz getdik" və s. publisistik aktuallığa köklənmiş fıkra, məktub, nağıl, müsahibə, esse və reportaj kitabları; "Dünya qazan, mən çömçə", "İraq və Misir" səyahət oçerkləri; "Həzrəti danqalaq" və "Əziznamə" həcvləri.

13.Türk bədii publisistikasında Azərbaycan mövzusu. Azərbaycan mühacir ədəbiyyatının publisistik fəaliyyəti və türkçülük məfkurəsi: Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və b. Ölkəmizə gəlmiş türk ədib və jurnalistlərindən M.C.Anday, A.Qədir, H.Tanər, F.Otyam, N.Üstün, O.Akbal, İ.Səlçuq, İ.Bozyel, Z.Makas və digərlərinin Azərbaycan haqqında bədii-publisistik kitabları.

14.Müasir türk ədəbiyyatı və publisistikasında sənədli nəsrin janr və formaları: oçerk, reportaj, fıkra-felyeton, memuar, gündəlik, məktub, bioqrafiya, bədii nitq, yol qeydləri, səfər təəssüratları, portret, müsahibə, avtobioqrafiya, açıq məktub.

**Mövzu planı**

| № | Mövzular | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Seminar |
| 1 | Sənədli nəsrin sənətkarlıq xüsusiyyətləri | 4 | 2 | 2 |
| 2 | Türk ədəbiyyatı tarixləri və sənədli nəsr | 2 | 2 | |
| 3 | Sənədli nəsrin təşəkkülü və təkamülünün tarixi-xronoloji hüdudları | 2 | 2 | |
| 4 | Klassik türk ədəbiyyatında sənədli nəsr tipləri | 2 | 2 | |
| 5 | Sənədli nəsrin inkişafında yeni mərhələ | 2 | 2 | |
| 6 | ”Tənzimat” dövrü sənədli nəsri və maarifçilik | 2 | 2 | |
| 7 | “Sərvəti-fünün” dövrü sənədli nəsri | 2 | 2 | |
| 8 | İlk peşəkar türk publisist-fıkraçısı Əhməd Rasim | 2 | | 2 |
| 9 | Xitabət sənəti və bədii nitq janrı | 2 | | 2 |
| 10 | Sənədli nəsrdə Türkiyə Milli-istiqlal mücadiləsi | 2 | 2 | |
| 11 | Cümhuriyyət dövründə sənədli nəsr | 4 | 2 | 2 |
| 12 | Türk sənədli nəsrində satirik-publisistik üslublu maarifçi konsepsiya | 2 | 2 | |
| 13 | Türk bədii publisistikasında Azərbaycan mövzusu | 2 | 2 | |
| 14 | Müasir türk ədəbiyyatında bədii-publisistik janrlar | 2 | 2 | |
| | Cəmi | 32 | 24 | 8 |

**Ədəbiyyat:**


1.Rəsulov Ə.A. Türk sənədli-bədii nəsri. Bakı: “Elm”, Nurlan NPM, 2004
2.Banarlı Nihat Sami. Resimli Türk Edebiyatı Tarihi: 2 ciltte, İstanbul: Milli Eğitim Basımevi, 1987
3.Demiray Kemal. Edebiyatta Türler. İstanbul: İnkılap ve Aka Yayın., I971
4.Gariboğlu Kemal. Edebiyat Bilgileri. Ankara: Gariboğlu Yayınları, 1969
5.Kabaklı Ahmet. Türk Edebiyatı: 3 ciltte. İstanbul: Otağ Matbaacılık, 1978
6.Karaalioğlu Seyit Kemal. Türk Edebiyatı Tarihi: 2 ciltte. İstanbul: İnkılap ve Aka Yayınları, 1973
7.Köprülü Mehmet Fuat. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken, 1986.

8.Moran Berna. Edebiyat Kuramları ve Eleştiri. İstanbul: İÜ yn., 1972
9.Mutluay Rauf. 100 Soruda Edebiyat Bilgileri. İstanbul: Gerçek Yn., 1977
10.Özdemir Emin. Yazınsal Türler. Ankara: Bilgi Yayınevi, 1994
11.Tanpınar Ahmet Hamdi. I9. Asır Türk Edebiyatı Tarihi. İstanbul: Çağlayan Yayınları, 1976
12.Крачковский И.Ю. Турецкая географическая литература ХУ - Х1Х вв. Избранные соч.: В 4-х т. T.IV, М.- Л.: Изд.-во АН СССР, 1957
13.Маштакова Е.И. Турецкая литература конца XVII – начала XIX в. М.: Наука, 1984
14.Меликов Т.Д. Назым Хикмет и новая поэзия Турции. М.: Наука, 1987

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**УНИВЕРСИТЕТ**

# *ПРОГРАММЫ*

По подготовке магистров по дисциплинам: «История турецкой литературы», «Теория турецкой литературы», «История и методология турецкого литературоведения», «Современные проблемы турецкого литературоведения», «Источниковедение», «Текстология», «Спецкурс».

## СПЕЦИАЛЬНОСТЬ:
## HSM – 020003 «ТУРЕЦКАЯ ЛИТЕРАТУРА»

**Составитель:**
**Аскер Расулов**
*доктор филологических наук,*
*профессор БГУ*

*Научный редактор:*
**Руфат Рустамов**
*доктор филологических наук,*
*профессор*

*Рецензенты:*
**Айдын Абиев,**
*доктор филологических наук,*
*профессор*
**Шукюфа Кадымова**
*кандидат филологических наук*

## ПОЯСНИТЕЛЬНАЯ ЗАПИСКА

Курс турецкой литературы для обучающихся в магистратуре факультета Востоковедения БГУ включает семь самостоятельных дисциплин:

История турецкой литературы – 176 часов

Теория турецкой литературы – 32 часа

История и методология турецкого литературоведения – 32 часа

Современные проблемы турецкого литературоведения – 32 часа

Источниковедение – 32 часа

Текстология – 32 часа

Спецкурс – 32 часа

Программы по данным дисциплинам, будучи взаимосвязаны между собой и охватывая проблемы истории и теории литературы, истории и современного состояния турецкого литературоведения и его составных частей предоставляют обучающимся в магистратуре возможность комплексного изучения турецкой литературы.

В качестве спецкурса избрана тема: «Турецкая документально-художественная проза». Данный выбор обусловлен огромной ролью документально-художественной литературы в становлении и развитии турецкой прозы и ее влиянием на формирование как прозаических жанров в литературе Турции – рассказа, повести и романа, так и публицистических жанров в турецкой журналистике – очерка, репортажа, фельетона и т.д.

Программа по каждой дисциплине состоит из небольшой пояснительной записки, в которой определяются ее цели и задачи, основного

содержания, тематического плана, списка научной литературы и учебных пособий.

Программы могут быть использованы также на соответствующих факультетах других вузов.

## ИСТОРИЯ ТУРЕЦКОЙ ЛИТЕРАТУРЫ

Программа курса по истории турецкой литературы для студентов-магистров составлена как продолжение соответствующей программы по истории турецкой литературы для студентов-бакалавров.

